**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİYYATININ YENİDƏN QURULMASI VƏ İQTİSADİ GÜCLƏRİN FORMALAŞDIRILMASI"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Cabbarov Vahid  Müslüm**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**___________________________ imza**

**"_____" _______________ 20__-ci il**

# "İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİYYATININ YENİDƏN QURULMASI VƏ İQTİSADİ GÜCLƏRİN FORMALAŞDIRILMASI"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060407- Menecment

**İxtisaslaşma:** Menecment (sahələr üzrə)

**Qrup:** 238


**Magistrant:**
**Cabbarov Vahid Müslim oğlu**
**____________________ imza**

**Elmi rəhbər:**
**i.e.d., prof. Muradov Rəşad Şahbaz oğlu**
**____________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**____________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_________________ imza**


**BAKI – 2022**

## Elm andı

Mən, Cabbarov Vahid Müslüm oğlu and içirəm ki, “İşğaldan azad olunmuş ərazilərin iqtisadiyyatının yenidən qurulması və iqtisadi güclərin formalaşdırılması” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADIYYATININ YENİDƏN QURULMASI VƏ İQTİSADİ GÜCLƏRİN FORMALAŞDIRILMASI

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: İşğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi-sosial simasında tarixi mövqeyinin bərpa olunması əsas şərtlərdəndir. Region iqtisadi fəaliyyətin lokomativlərindən birinə çevrilməli və ölkə iqtisadiyyatına transformasiyası həyata keçirilməlidir. Dayanıqlı iqtisadi inkişaf və qazanılan tarixi imic bu ərazilərə sərmayə axınına imkan yaradacaqdır.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının qiymətləndirilməsi və yenidən dirçəldilməsi istiqamətində görüləcək tədbirlərin müəyyənləşdirilməsindən ibarətdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat zamanı analiz, təhlil, müqayisə, ümumiləşdirmə, qruplaşdırma, sintez və s. kimi iqtisadi tədqiqat metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatın informasiya bazasını rəsmi statistik göstəricilər, normativ hüquqi aktlar, mütəxəssis araşdırmaları, mövzu ilə əlaqəli yerli və xarici ədəbiyyatlar, həmçinin açıq informasiya resursları təşkil edir .**

**Tədqiqatın məhdudiyyətləri: Qarabağ və ətraf rayonların 30 ildir ki, erməni işğalı altında olması bölgənin sosial-iqtisadi göstəricilərinin qeydiyyatı üçün əsas maneə olmuşdur.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: İşğaldan azad olunmuş ərazilərin Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyəti əsasalandırılmış, bölgədə iqtisadiyyatın bərpa və yenidən qurulmasının əsas şərtləri müəyyən edilmiş, bölgənin işğal dönəminə qədər olan iqtisadi vəziyyətinin statistik təhlili aparılmış, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf potensialı dəyərləndirilmiş və iqtisadi yüksəlişinin təmin olunmasında dövlət siyasətinin rolu qeyd edilmişdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqatın nəticələri və irəli sürülmüş təkliflər, bölgənin iqtisadiyyatının yenidən qurulması üzrə dövlət tədbirləri və regional proqramlarda, o cümlədən bölgənin sosial-iqtisadi inkişafı istiqamətində görüləcək tədbirlərin tənzimlənməsi prosesində istifadə oluna bilər.**



***Açar sözlər: azad olunmuş ərazilər, Qarabağ, Şərqi Zəngəzur, iqtisadi inkişaf, yenidənqurma, dövlət siyasəti***

**RECONSTRUCTION OF THE ECONOMY OF THE LIBERATED TERRITORIES AND THE FORMATION OF ECONOMIC FORCES**


**SUMMARY**

**The actuality of the subject: One of the main conditions is the restoration of the historical position of liberated territories in the economic and social image of the country. Sustainable economic development and historical image gained will allow investment to flow to these areas.**

**Purpose and tasks of the research: The purpose of research is to assess the economic potential of liberated territories and to determine the measures to be taken to revive them.**

**Used research methods: Economic research methods such as analysis, comparison, generalization, grouping, synthesis were used during the research.**

**The information base of the research: The research database consists of official statistics, normative legal acts, expert researches, local and foreign literature on the subject, as well as open information resources.**

**Restrictions of research: The occupation of Karabakh and surrounding areas by Armenians for 30 years has been a major obstacle to the registration of the region's socio-economic indicators.**

**The novelty and practical results of investigation: The importance of the liberated territories for Azerbaijani economy has been substantiated, the role of state policy in ensuring the development potential and economic growth of Karabakh and East Zangazur economic regions was noted.**

**Scientific-practical significance of results: The results of the study can be used in state planing and regional programs for the reconstruction of the economy of the liberated territories, as well as in the balancing of measures for the revival and development of the region.**



***Keywords: liberated territories, Karabakh, East Zangezur, economic development, reconstruction, state policy***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ARDSK** | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **TÜRKSOY** | Türk ölkələrinin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilat |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **ANAMA** | Azerbaijan National Agency for Mine Action |
| **KSM** | Korporativ Sosial Məsuliyyət |
| **DOST** | Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi |
| **KOB** | Kiçik və Orta Biznes |
| **KNT** | Kənd Təsərrüfatı Nazirliyi |
| **MR** | Muxtar Respublika |
| **ABŞ** | Amerika Birləşmiş Statları |
| **SES** | Su Elektrik Stansiyası |

## MÜNDƏRİCAT

**GİRİŞ** ........ 8

**I FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İQTİSADİ İNKİŞAF PERSPEKTİVLƏRİ** . 13

1.1. İşğaldan azad olunmuş ərazilərin Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyəti ........ 13

1.2. Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində iqtisadiyyatın yenidən qurulmasının müqəddəm şərtləri ........ 21

**II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN İQTİSADİ İNKİŞAF POTESİALININ TƏHLİLİ** ........ 27

2.1. İşğaldan azad olunmuş ərazilərin işğal dönəminə qədər olan iqtisadi vəziyyətinin statistik təhlili ........ 28

2.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi inkişaf potensialının dəyərləndirilməsi ........ 33

**III FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİYYATININ YÜKSƏLİŞİ VƏ YENİ İQTİSADİ GÜCLƏRİN YARADILMASININ ƏSAS PRİORİTET İSTİQAMƏTLƏRİ** ........ 44

3.1. İşğaldan azad olunmuş ərazilərdə iqtisadi yüksəlişin təmin olunmasında dövlət siyasəti ........ 45

3.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi inkişafı bu regionda məskunlaşmanın əsas amili kimi ........ 50

3.3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi inkişafının yaxın perspektivləri və ölkə iqtisadiyyatına verəcəyi töhfələr ........ 56

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........ 61

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ........ 64

Cədvəllərin siyahısı ........ 70

Sxemlərin siyahısı ........ 70

Diaqramların siyahısı ........ 70

Qrafiklərin siyahısı ........ 70

# GİRİŞ

**Mövzunun aktuallığı:** İşğaldan azad olunmuş Qarabağ və ətraf rayonlarının iqtisadiyyatının yenidən qurulması, infrastrukturunun bərpası, bölgədə dayanıqlı inkişafın təmin olunması günümüzün əsas prioritet mövzularındandır. Təsadüfi deyildir ki, işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış", Azərbaycan Respublikası Prezidentinin 2 fevral, 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapmışdır. Sözügedən məsələ,qarşıdakı onillikdə ölkənin sosial-iqtisadi tərəqqisinə əsaslanan beş milli prioritetdən biri olaraq müəyyən edilmişdir. Bu da həm Azərbaycan dövlətinin, həm də xalqının bu işə nə dərəcədə böyük önəm verdiyinin bariz nümunələrindən biridir.

Bölgənin uzun illər işğal altında qalması və hərbi münaqişə zonası olması, eyni zamanda işğal dövründə torpaqların qeyri-səmərəli istifadəsi, təbii, maddi-mənəvi sərvətlərin talan edilməsi, vandalizmə məruz qalması bölgəni hər cəhətdən istifadəyə yararsız hala gətirmişdir. Restrukturizasiya prosesini rahat həyata keçirə biləcək təməllərin demək olar ki, yox edilməsi kompleks bərpa və yenidənqurmanı zəruri etmişdir.

44 günlük,Vətən müharibəsinin qələbə ilə başa çatması məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdaraq orada yaşaması üçün imkanlar yaratmışdır. Bunun üçün ilk başda sözügedən ərazilərdə dekontaminasiya-minatəmizləmə işləri aparılmalı, müasir infrastrukt qurulmalı, əlverişli həyat şəraiti yaradılmalı, layiqli yaşayış təmin edilməli, müasir xidmətlər əlçatan olmalıdır. Məhz, bu yenidənqurma proseslərindən sonra bölgədə dayanıqlı məskunlaşma mümkün olacaqdır.

Həyata keçiriləcək yenidənqurma və bərpa işlərindən sonra bölgənin ölkə iqtisadiyyatında payı işğaldan öncəki səviyyəyə çatdırıla və günümüzün şərtlərinə uygun olaraq daha da artırıla bilər.

İşğaldan azad edilmiş ərazilərin Azərbaycanın sosial-iqtisadi həyatındakı tarixi mövqeyinin bərpa olunması ən önəmli məsələlərdəndir. Bölgə, yerli iqtisadi sferanın aparıcı həlqələrindən birinə çevrilməsiylə yanaşı, Azərbaycanın digər şəhər və

rayonlarına uyğun inkişaf səviyyəsinə uyğun olmalı, eyni zamanda ölkə iqtisadiyyatına tam şəkildə inteqrasiya olmalıdır. Regionun gələcəkdəki dayanıqlı inkişafı iqtisadi ehtiyacların müvafiq resurslarla təmin olunmasından asılı olacaqdır. Belə ki, bölgənin təbii resurslarla zənginliyi, o cümlədən qazanılan böyük tarixi imic bu ərazilərə sərmayə axınına imkan yaradacaqdır.

Sözügedən ərazidə zəngin təbii resurslar və infrastruktur potensialından səmərəli istifadə, dövlət və özəl sektor arasında əməkdaşlıq, iqtisadi fəaliyyətin canlandırılması, uzunmüddətli dayanıqlı məskunlaşmanın təmin edilməsi Azərbaycan iqtisadiyyatının inkişafına da öz müsbət təsirini göstərəcəkdir.

Bu prosesdə dövlət-özəl tərəfdaşlığının zəruri stimullar əsasında inkişaf etdirilməsi çox vacibdir. Bölgədə yeni beynəlxalq və regional nəqliyyat-kommunikasiya dəhlizinin bərpası ölkənin dünya bazarına çıxış imkanlarını genişləndirməklə bərabər, işğaldan azad olunmuş ərazilərin inkişafına da mühüm təkan verəcəkdir. Bu nprosesin sürətləndirilməsi isə həmin ərazilərin ən qısa zaman kəsiyində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsinə, o cümlədən ölkənin ümumi iqtisadi inkişafına əhəmiyyətli töhfələr verəcəkdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadiyyatının yenidən qurulması və iqtisadi güclərin formalaşdırılması orta və uzun müddətdə Azərbaycan dövlətinin qarşısında duran başlıca vəzifələrdən biridir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi**: İkinci Qarabağ müharibəsi zamanı azad olunmuş, lakin düşmən tapdağı altında qaldığı dövrdə istismara və vandalizmə məruz qalmış Azərbaycan torpaqlarında iqtisadiyyatın yenidən dirçəldilərək inkişaf etdirilməsi istiqamətində müəyyən araşdırmalar aparılmış, təhlillər edilmiş və bu barədə elmi məqalələr dərc olunmuşdur. Bu istiqamətdə Cabbarlı L.A., Niftiyev F.Q., Muradzadə N., Fikrətzadə F., Manafov Q., Qurbanov S., Sadıqov E., Əkbərov M., Kərimli İ., Hacıyev F., Aslanov Z., Əliyeva T., Xeyirxəbərov İ., Rzayeva Ü., Kaşıyeva F., Fərzəliyev E., Məmmədov A., Mirzəyeva G., Hüseynli A., Məmmədzadə P., Məmmədov A., Namazova N. və digərləri Qarabağ iqtisadiyyatının müxtəlif aspektlərini əhatə edən araşdırmala aparmışdır.

Lakin, mövcud iqtisadi münasibətlər sisteminin davamlı inkişaf etdiyini nəzərə alsaq, yeni tədqiqatlar və araşdırmalar aparılmalı, fərqli, beynəlxalq standartlara uyğun təkliflər irəli sürülməlidir. Bu, dünya ölkələrinin, əsasən də inkişaf etmiş ölkələrin nəzərə çarpan təcrübələrini bölgədə uğurlu şəkildə tətbiq etməyə imkan verəcək.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqat işinin əsas məqsədi işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının dəyərləndirilməsi və bölgənin yenidən dirçəldilməsi istiqamətində görüləcək tədbirlərin müəyyənləşdirilməsindən ibarətdir. Bu məqsədlərə çatmaq üçün qarşıya qoyulmuş vəzifələr aşağıdakılardır:

- İşğaldan azad edilmiş ərazilərin potensial iqtisadi imkanları təhlil edilməli;
- İşğaldan azad edilmiş ərazilərə dəymiş maddi ziyanın təhlili aparılmalı;
- İşğaldan azad olunmuş ərazilərin ölkə iqtisadiyyatı üçün əhəmiyyəti öyrənilməli;
- İşğaldan azad olunmuş ərazilərin mövcud vəziyyəti dəyərləndirilməli;
- İşğaldan azad edilmiş ərazilərin mövcud bazar rəqabəti şəraitində dayanıqlı inkişafının əsas istiqamətləri müəyyənləşdirilməli.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, predmeti isə işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın yenidən qurulması və yeni iqtisadi güclərin formalaşdırılmasıdır.

**Tədqiqat metodları:** Tədqiqat zamanı analiz, təhlil, müqayisə, qruplaşdırma, ümumiləşdirmə, sintez və s. kimi iqtisadi tədqiqat metodlarından istifadə edilmişdir. Dissertasiyanın birinci fəslində gələcəkdə bölgənin inkişafına fayda gətirəcək imkanlar və maneə törədə biləcək təhlükələr analiz metodu ilə müəyyənləşdirələrək təhlil olunmuşdur. İkinci fəsildə müqayisə metodu vasitəsilə işgaldan öncəki illərdə ərazilərin iqtisadiyyatı araşdırılmış, əldə edilən nəticələr yeni yaradılmış iqtisadi rayonların potensial iqtisadi inkişaf imkanları ilə uzlaşdırılmışdır. Son olaraq, sistemləşdirmə, qruplaşdırma və modelləşdirmə metodlarının köməyi ilə əldə olunan məlumatlar ümumiləşdirilmiş, tədqiqatın mövzusuna uyğun nəticələr çıxarılmış, təkliflər verilmişdir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqatın informasiya bazasını Azərbaycan Dövlət Statistika Komitəsinin, o cümlədən aidiyyatı dövlət qurumlarının iqtisadi-statistik məlumatları, bölgənin yenidən qurulması məqsədilə qəbul edilmiş dövlət proqramı və sənədlər, mətbuatda dərc edilmiş elmi məqalələr, mütəxəssis araşdırmaları, mövzu ilə əlaqəli yerli və xarici ədəbiyyatlar, həmçinin açıq informasiya resursları təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri:** Qarabağ və ətraf rayonların 30 ildir ki, erməni işğalı altında olması, bölgənin sosial-iqtisadi göstəricilərinin qeydiyyatı üçün əsas maneə olmuşdur. Həmçinin, statistik məlumatların əsasən, ötən əsrin 80-90-cı illərinə aid olması və sonrakı dövr üçün məhdud olaraq araşdırılması, yetərli səviyyədə öyrənilə bilinməməsi böyük çətinlik yaradır. Sözügedən ərazidə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yeni yaradılması da məlumat bazasını müəyyən mənada məhdudlaşdıran amillərdəndir.

**Tədqiqatın elmi yeniliyi:** İşğaldan azad edilmiş ərazilərin dayanaqlı sosial-iqtisadi inkişafını təmin etmək, bölgənin zəngin potensialini dəyərləndirmək və infrastrukturunun bərpasını sürətləndirmək məqsədilə atılan addımlar, vahid proqram çərçivəsində iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirmişdir. Yeni yaradılmış iqtisadi rayonların inkişaf potensialını dəyərləndirmiş elmi material sayı, təbii olaraq azdır. İşğaldan azad edilmiş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması- bölgənin iqtisadi inkişaf potensialını yenidən araşdırmaq, müasir dövrə uyğun təhlil etmək və işğaldan sonrakı dövr haqqında daha dəqiq proqnozlar vermək üçün imkan yaradır. Tədqiqat işində aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- İşğaldan azad olunmuş ərazilərin Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyəti əsaslandırılmışdır;
- Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində iqtisadiyyatın bərpa və yenidən qurulmasının şərtləri müəyyən edilmişdir;
- İşğaldan azad olunmuş ərazilərin işğal dönəminə qədər olan iqtisadi vəziyyətinin geniş statistik təhlili aparılmışdır;

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi inkişaf potensialı əsaslandırılmışdır;
- İşğaldan azad olunmuş ərazilərdə iqtisadi yüksəlişin təmin olunmasında dövlət siyasətinin rolu təhlil edilmişdir;
- Bölgənin iqtisadi inkişafının əhalinin yenidən məskunlaşmasında yaradacağı üstünlüklər əsaslandırılmışdır;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaxın inkişaf perspektivləri və Azərbaycan iqtisadiyyatına verəcəyi töhfələr öyrənilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun bərpası və yenidənqurulması, o cümlədən, iqtisadi güclərin yaradılması mözusunu əhatə edən bu tədqiqat işinin nəticələri praktiki cəhətdən də yararlıdır. Tədqiqatın nəticələri və irəli sürülmüş təkliflər, bölgənin iqtisadiyyatının yenidən qurulması üzrə dövlət tədbirləri və regional proqramlarda, o cümlədən, bölgənin sosial-iqtisadi inkişafı istiqamətində görüləcək tədbirlərin tənzimlənməsi prosesində istifadə oluna bilər.

# I FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İQTİSADİ İNKİŞAF PERSPEKTİVLƏRİ

## 1.1. İşğaldan azad olunmuş ərazilərin Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyəti

İşğal olunduğu dönəmdən etibarən, Qarabağ bölgəsinin iki ölkə arasında münaqişəli ərazi halına gəlməsi, iqtisadiyyatını da ciddi anlamda tənəzzülünə gətirib çıxartmışdır. İqtisadiyyatının əsas hissələrindən birinin aqrar sektorun təşkil etdiyini nəzərə alsaq, sözügedən sahəyə vurulan ciddi zərərləri aydın şəkildə görmək olar. Belə ki, işğal nəticəsində Azərbaycanın ümumi taxıl istehsalının 24%-lik, şərab istehsalının 41%-lik, ət istehsalının 18%-lik, süd istehsalının 34%-lik, kartof istehsalının 46%-lik həcmini təşkil edən təxminən 7000 müəssisə bağlanmış və ya dağıdılmışdır. . Bu dövrdə 300 min iş yeri itirilmiş, əhalinin 12%-i köç etməyə məcbur olmuşdur (ARDSK-nin hesabatları, 2020). Neft sektorunun ümummilli məhsul istehsalına, büdcə gəlirlərinə və ölkə iqtisadiyyatına ciddi təsirini nəzərə alsaq, işgaldan azad olunmuş bölgənin ölkə üçün iqtisadi əhəmiyyətini bir daha ortaya çıxarmış olur. Aşağıdakı cədvəldə ölkə iqtisadiyyatının əsas göstəricilərinin illər üzrə dəyişməsi əks olunmuşdur.

**Cədvəl 1: Azərbaycanın 2016-2020-cı illər üzrə, əsas makroiqtisadi göstəriciləri**

| | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|
| Əhali sayı (min nəfər) | 9810.0 | 9898.1 | 9981.5 | 10067.1 | 10119.1 |
| ÜDM (mln. AZN) | 60425.2 | 70337.8 | 80092.0 | 81896.2 | 72432.2 |
| Adambaşına düşən ÜDM (AZN) | 3928.6 | 4198.5 | 4797.8 | 4864.0 | 4272.2 |
| İnvestisiya (mln. AZN) | 22706.4 | 24462.5 | 25877.0 | 24986.6 | 22484.0 |
| Xarici Ticarət Həcmi (mln.$-la) | 21946.7 | 24103.3 | 30955.0 | 33302.7 | 24471.3 |
| İdxal (mln.$-la) | 8489.1 | 8783.3 | 11465.9 | 13667.5 | 10730.7 |
| İxrac (mln.$-la) | 13457.6 | 15320.0 | 19489.1 | 19635.2 | 13740.6 |
| Dövlət büdcə gəlirləri (mln. AZN) | 17505.7 | 16516.7 | 22508.9 | 24398.5 | 26077.9 |
| Dövlət büdcə xərcləri (mln. AZN) | 17751.3 | 17594.5 | 22731.6 | 24425.9 | 26416.3 |

**Mənbə:** https://www.stat.gov.az/source/regions/ - ARDSK, Dövlət Gömrük Komitəsi (2020).

Cədvəldəki statistik məlumatları təhlil etdikdə görürük ki, son illərdə dünya birjalarında dalğalanan neft qiymətləri ölkə iqtisadiyyatında da özünü göstərir. Bunun başlıca səbəbləri kimi isə COVID-19 pandemiyası və Ermənistanla aparılan İkinci Qarabağ müharibəsi göstərilir (Hesablama Palatası, 2020).

Növbəti təsvir isə ölkə iqtisadiyyatının əsasəən neft sektorundan asılılığını ortaya çıxarır.

**Diaqram 1: Dünya bazarında neftin orta illik qiyməti (2016-2020-ci illər, ABŞ dolları ilə)**




**Mənbə:** [Statista 2022] - Sönnichsen N. (2022).

Qlobal və məlum ölkədaxili iqtisadi problemlərin fonunda, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında qurulacaq, tamamilə qeyri-neft sektoruna əsaslanan iqtisadiyyat ÜDM və ixrac məhsullarının strukturuna ciddi təsir göstərəcəkdir. Yaxın gələcəkdə ölkənin sosial-iqtisadi inkişafına önəmli təkan verəcəkdir. İşğalından öncə regionun iqtisadiyyatını turizm, kənd təsərrüfatı, sənaye, yeyinti sənayesi, dağ – mədən sənayesi, sənaye rekreasiya imkanları və s. təşkil edirdi. Bölgə işğal dövründə talan edilsə də, vandalizmə məruz qalsa da, istismar edilsə də iqtisadi inkişaf üçün malik olduğu güclü potensialını heç zaman itirməmişdir:

**Turizm.** Qarabağ ərazisi öz təbii ehtiyatlarına, relyefinə və tarixi abidələrinə görə Azərbaycanın digər regionlarından fərqlənir və seçilir. Belə ki, Sovetlər Birliyi dövründə olduqca məşhur olan Şuşa, Laçın, Kəlbəcər və Ağdam rayonları ölkə turizmini irəliyə aparacaq geniş imkanlara sahibdir. İşğaldan öncəki dövrdə turizm məqsədilə üz tutulan və turistlərin diqqətini cəlb edən əsas məkanlardan biri Şuşa

şəhəri olmuşdur. Turizmdə ən böyük motivasiya funkisyalarından biri də məhz təbii guşələr olduğu üçün bu Şuşa şəhərini ön plana çıxarır.

İşğaldan azad edilmiş ərazilərin tarixi və mədəni potensialı turizmin inkişaf etdirilməsi üçün əsas amillərdəndir, çünki:

1) Tarixi və mədəni irslə tanışlıq turistlərin cəlbi üçün ən vacib vasitədir, ən güclü turist motividir;
2) Tarixi və mədəni irs obyektləri mənfəət qazana bilən və iqtisadi inkişafa əhəmiyyətli dərəcədə töfhə verən mühüm sərvətdir;
3) Turizm bölgənin müsbət imicini yaradır, turizm arenasında liderliyin əldə edilməsində mühüm vasitəsi kimi istifadə olunan tarixi və mədəni irsin "brend"ləşməsini təmin edir (Cabbarov Ə., 2017: s. 142).

Belə ki, bölgədə turizmin inkişaf etdirilməsi ölkə iqtisadiyyatına bir çox faydalar verəcəkdir. Turistlərin xərclədiyi vəsaitlər sayəsində Azərbaycan iqtisadiyyatına əlavə gəlir gələcəkdir. Zamanla turist sayının artması şübhəsiz ki, sözügedən sahə üzrə aktiv istehlak bazarının yaradılmasına və yerli turizm sənayesində investisiya cəlbediciliyin artmasına səbəb olacaqdır. Turistlərin tələbatlarına müvafiq məhsulların istehsalı və satışının həcmi artdıqca bölgədə turizmə yararlı yeni obyektlər (otellər, iaşə müəssisələri, istirahət və əyləncə mərkəzləri) inşa ediləcəkdir (Abadov M., 2014: s.98).

COVID-19 pandemiyası, günümüzdə, nəinki Azərbaycan, eləcə də dünya turizm sektoruna ciddi zərbə vurmuşdur. Bunu aşağıdakı cədvəldən də aydın şəkildə görmək olar.

**Cədvəl 2: Azərbaycan üzrə səyahət agentlikləri və turoperatorları müəssisələrinin sayı, əldə etdiyi ümumi gəlir (min manat) və müəssislərdə işçilərin sayı**

| İllər | Müəssisə | Gəlir | İşçi sayı |
|---|---|---|---|
| 2016 | 272 | 36,758.3 | 1,838 |
| 2017 | 339 | 41,034.2 | 1,891 |
| 2018 | 374 | 56,439.4 | 2,074 |
| 2019 | 432 | 63,363.8 | 2,205 |
| 2020 | 300 | 16,147.3 | 1464 |

**Mənbə:** https://www.stat.gov.az/source/tourism/, 2021

Cədvəldə əks olunan məlumatlardan da məlum olur ki, pandemiya bu sahədə olan gəlirləri kəskin şəkildə azaltmış, nəticədə çoxlu sayda turizm subyektinin bağlanmasına, işçilərin ixtisarına səbəb olmuşdur.

Belə ki, 2019-cu ilə qədər ciddi surətdə inkişaf edən bu sahədə gəlirlərin həcmində 74%, fəaliyyət göstərən müəssisə sayında isə 31%-lik azalma qeydə alınmışdır. Həm daxili, həm də xarici turistlərin diqqətini cəlb edəcək yeni obyektlərin inşası bu ziyanın aradan qaldırılmasına və sahənin inkişafına ciddi töhfə verəcəkdir. İşğaldan azad edilmiş ərazilərdə yeni turizm obyektlərinin inşası, turizm sənaye müəssisələrinin sayının artması turizm sektorunda işləyən insanlarının sayının artmasına gətirib çıxaracaq ki, bu da çox sayda insanın işlə təmin olunması və sektorun gəlirlərinin artması deməkdir (Mahirli J., 2020: s. 109). Bununla da iqtisadi cəhətdən geridə qalmış sahələrin inkişaf etmiş sənaye bölgələri səviyyəsinə çatmasına və digər fəaliyyət növlərinin yaranmasına, genişlənməsinə şərait yaranacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyata fayda gətirəcək müalicə turizminin də inkişaf etdirilməsi üçün güclü potensial mövcuddur. Rayonların ərazilərində yerləşən müalicəvi mineral su resursları, flora və faunanın zənginliyi müalicə turizminin inkişafı üçün mühüm vasitələrdir. Sanatoriyaların, kurort yerlərinin və reabilitasiya mərkəzlərinin inşası sektora öz töfhəsini verəcəkdir. Reabilitasiya mərkəzlərinin açılışı hər şeydən öncə müharibə qaziləri və COVID-19 virusununun fəsadlarından əziyyət çəkən insanlar üçün böyük əhəmiyyətə malik olacaqdır. Lazımi texnologiya və təcrübəli səhiyyə kadrları cəlb edildiyi təqdirdə bu istiqamətdə inkişaf etmiş xarici ölkələrin müalicə turizmi təcrübəsi işğaldan azad edilmiş ərazilərdə qurula bilər. Bununla da insanlar əlavə nəqliyyat xərclərindən azad olaraq keyfiyyətli müalicə və sağlamlıq xidmətləri əldə edəcəklər. İnvestisiya cəlbediciliyi ilə nəticələnəcək bu amil müalicə turizminin inkişafı üçün güclü təkan deməkdir.

**Sənaye.** Qarabağ bölgəsində qurulacaq sənayenin təməli kimi emal, metallurgiya, dağ-mədən sənayesini, kreativ yaradıcılıq sənayesi və meşə sənayesini vurğulamaq olar. Qeyd edilən bu sahələrin güclü potensial və resursa malik

olduğunu nəzərə alaraq, bu istiqamətlərdə investisiya qoyulması olduqca məqsədə uyğun hesab edilə bilər. Son dövrlərdə bir çox inkişaf etməkdə olan ölkələr belə bir nəticəyə gəlmişdirlər ki, sadəcə xammal və material istehsalı iqtisadi inkişaf üçün kifayət etmir (Abdalova M., 2019: s. 34).

Bunun üçün ilk olaraq emal sənayesini inkişaf etdirmək lazımdır. Bir çox təcrübələr göstərir ki, emal sənayesinin inkişaf səviyyəsi iqtisadiyyatın prioritet istiqamətlərini müəyyən edir. Bu səbəbdən, Qarabağ və Şərqi Zəngəzur iqtisadiyyatının bərpa və yenidən qurulması prosesində emal sənayesinə xüsusi diqqət ayrılması vacibdir. Bu, bölgədə bir çox müəssisə və iş yerlərinin açılması ilə nəticələnə bilər.

Diqqət yetirsək görə bilərik ki, metallurgiya sənayesinin inkişafı iqtisadiyyat, hərb və s. sahələrin də irəliləyişi üçün böyük əhəmiyyət kəsb edir. Metallurgiya öz növbəsində maşınqayırma, avtomobilqayırma, cihazqayırma, energetika, habelə məişət texnikası kimi sənaye sahələrinin də inkişafına töfhələr verir.

Metallurgiya sənayesi son illərdə Azərbaycanda da prioritet sahə olaraq ön plandadır. Ölkəmizin həm qara, həm də əlvan metallurgiya üçün olduqca geniş imkanları vardır (Əliyev Ş., 2021: s. 93). İşğaldan azad edilmiş ərazilərdə isə bu sahənin inkişafı üçün kifayət qədər elektrik təmin edəcək mənbə və resurs yataqları mövcuddur. Təbii ki, araşdırmalar aparıldıqdan sonra ümumi resurs ehtiyyatı haqqında daha dəqiq məlumatlar əldə ediləcəkdir. Ərazidə eyni zamanda qızıl, civə, mis, üzlük daşı və bir çox faydalı qazıntı yataqları vardır.

Qarabağda kreativ sənayenin inkişaf etdirilməsi dedikdə, dizayn məhsulları, xalçaçılıq və suvenir istehsalına nəzər yetirə bilərik. Bölgədə xalçaçılığın tarixi olduqca qədimdir və dərin köklərə malikdir. Burada toxunmuş xalçalar ölkəmizin dekorativ tətbiqi sənəti üçün çox nadir və dəyərlədir.

Rayonların xammal ehtiyatı baxımından bolluğu burada toxuculuğun inkişafına təkan verən amillərdən biridir. İşğaldan azad edilmiş ərazilərin pambıqçılıq və xırdabuynuzlu heyvandarlıqdan əldə edəcəyi yun xammal kimi istifadə edildiyi təqdirdə bölgədə xalçaçılığın yenidən inkişaf etdirilməsi mümkündür. Bu səbəbdən rayonlarda ilk növbədə kənd təsərrüfatı inkişaf

etdirilməlidir ki, xalçaçılıq sektorunu xammal ilə davamlı təminatı mümkün olsun. İstehsalat qurulduqdan sonra rahat şəkildə satış-marketinq kanalları qurula və məhsullar istehlakçılara çatdırıla bilər. Xüsusilə, bu məhsullar dünya bazarına çıxdıqdan sonra ölkəyə gələcək turistlərin diqqətini cəlb edəcəkdir. Müasir dövrdə mexaniki avadanlıq və sintetik xammala toxunmuş xalçalar üstünlük təşkil etidiyi üçün əllə toxunulan keyfiyyətli xalçalar olduqca dəyərli hesab edilərək maraq dairəsində olacaqdır və iqtisadiyyata verdiyi faydalar nəzərə çarpacaq dərəcədə güclü olacaqdır. Sektorun inkişafı iqtisadiyyata öz töfhələrini lazımi qədər verəcəkdir.

Meşə sənayesinə gəldikdə, bu sektor üzrə ixtisaslaşmış mütəxəssisləri əsasən 2 sual düşündürür:

1. Sənayenin təməllərinin atılıb inkişaf etdiriləcəyi ərazinin nəqliyyat şəraiti sektor üçün uyğundurmu;

2. Sektoru xammal ilə təmin edəcək kifayət qədər ehtiyyat mövcuddurmu?

İşğaldan azad edilmiş ərazilərin meşə örtüyünü, ağac çeşidliliyini və s. nəzərə aldığımız təqdirdə belə bir fikir irəli sürə bilərik ki, burada meşə sənayesinin tətbiqi və inkişaf etdirilməsi məqsədəuyğun addımdır. Meşə materialları öz növbəsində maşınqayırma, tikinti, əhalinin məişət ehtiyacı və s. kimi sahələrdə mühüm rol oynayır. Mebel fabrikləri üçün əsas xammal mənbəyi rolunu oynayacaq meşəliklər bu sektorun inkişafı üçün də olduqca böyük əhəmiyyətə malikdir. Meşələrin təmin etdiyi xammal ehtiyatlarının mebel sektoruna verəcəyi dəstək yerli məhsulların bazar payını daha da artıracaqdır. Beləliklə idxal məhsullar və onların Azərbaycan bazarına gətirilməsi üçün çəkilən xərclərin miqdarı da azalacaqdır (Hüseynova İ., 2013: s.105).

Bundan əlavə, parket, faner, texniki kağız, karton və kibrit istehsalında xammal təminatçısı kimi meşələrin rolu böyükdür. Sadaladıqlarımızdan aydın şəkildə görə bilərik ki meşə sənayesi bir çox sektora təkan verir və onları xammala təmin edir. Nəticədə bazarda bir çox istehlakçının tələbatını ödəyəcək məhsulların istehsalı reallaşdırılır. Buna əsasən də deyə bilərik ki, Qarabağda meşə sənayesinin inkişafı eyni zamanda iqtisadi inkişafa da təkan verəcəkdir.

**Kənd təsərrüfatı.**İqtisadiyyatdan danışdıqda kənd təsərrüfatının əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Yüngül və yeyinti sənayesinin xammal taminatçısı olması kənd təsərrüfatının iqtisadi baxımdan nə qədər önəmli olduğunu göstərir. Xüsusilə, işğaldan azad edilmiş ərazilərin kənd təsərrüfatı baxımından inkişafa çox meyilli olduğunu nəzərə alsaq, deyə bilərik ki, burada aqrar sektorun tətbiqi və inkişafı üçün külli miqdarda investisiya qoyulması olduqca mühümdür.

İşğaldan azad edilmiş torpaqlar vaxtilə vandalizmə məruz qaldığı, istismar olunduğu və düzgün şəkildə istifadə edilmədiyi üçün yararsız hala düşmüşdür. Qarşıda duran başlıca problemlərdən biri bu torpaqların əvvəlki məhsuldarlığının bərpa edilməsidir (Quliyev E., 2015: s. 187). Torpaq faktorundan əlavə, mövcud iqlim şəraiti Qarabağın aran ərazilərində kənd təsərrüfatının inkişaf etdirilməsi üçün güclü potensial yaradır.Belə ki, kənd təsərrüfatının əsasını taxılçılıq, heyvandarlıq, baramaçılıq, tütünçülük, bostançılıq, üzümçülük və meyvə-tərəvəz təşkil etmişdir.

Ümumilikdə isə, Kiçik Qafqaz dağları öz iqliminin müxtəlifliyi ilə seçilir. Ərazidəki torpaq-iqlim faktoru burada heyvandarlığın və bitkiçiliyin də səmərəli və yüksək inkişafı üçün şərait yaradır.

Hazırda, Azərbaycanda ət və ət mahsulları ilə yerli təminat səviyyəsi yüksək olsa da, bu xaricdən məhsul idxalını da azaltmır. İşğaldan azad edilmiş ərazilərin potensialı əhalinin heyvandarlıq məhsulları ilə yerli təminatı yüksələcək və bu sahə üzrə idxal azalacaqdır. Qarabağ və ətraf rayonların ərazisi dağlıq olduğu üçün heyvandarlıq üçün yem ehtiyatı olan otlaqlar olduqca genişdir. Hər növ iribuynuzlu və xırdabuynuzlu heyvanın burada böyüdülərək çoxaldılması üçün şərait mövcuddur. Hətta, pilot layihə olaraq, Azərbaycanda olmayan cinsləri burada böyütmək və çoxaltmaq mümkündür. Qoyunlardan əldə ediləcək yunlar toxuculuq sektorunun daha da inkişaf etməsinə təkan verəcək amillərdən biri olacaqdır. İqtisadiyyatın daha da inkişaf etməsinə dəstək amili kimi heyvandarlıq kənd təsərrüfatının olduqca böyük əhəmiyyətə malik parçasına çevriləcəkdir (İbrahimov İ., 2016: s. 312).

Bir çox ölkələrin heyvandarlıq və ət məhsulları sektorunu araşdıraraq, təcrübələri tətbiq etdiyimiz təqdirdə belə qənaətə gəlmək olar ki, birinci dərəcəli

keyfiyyət nişanına malik ət və ət məhsullarını istehsal edərək ixrac potensialını artırmaq mümkündür. Keyfiyyətli ət miqdarında artım həm də ölkə əhalisinin ərzaq təhlükəsizliyində mühüm rol oynaya bilər.

İşğaldan azad edilmiş ərazilərə diqqət yetirdiyimizdə görə bilərik ki, ərazinin əkinçilik potensialı hesabına gələcək illərdə ölkəmizin əkin balanası əhəmiyyətli dərəcədə artacaqdır. Torpaqlarda irriqasiya və meliorasiya sistemlərinin qurulması bu istiqamətdə önəmli addımlardan biri olacaqdır. Torpaqlar məhsuldarlığını geri qazandığı təqdirdə artıq buraya texniki avadanlıq və professional kadrların, mütəxəssislərin cəlb edilməsi inkişaf yolundakı digər önəmli addımdır. Mütəxəssislərin köməyi ilə ərazinin hansı növ bitkilərin əkini üçün uyğun olduğu və ya burada başqa hansı yeni növ bitkilərin pilot layihə kimi əkilməsinin mümkün olacağını öyrənə mümkün olacaqdır. Dənli bitkilərin əkini həm heyvandarlığın yem ehtiyyatı kimi, həm də çörək və un məhsullarının istehsalı üçün xammal kimi istifadə oluna bilər. Məsələn, Qubadlı rayonunda çəltik əkini üçün ideal şərait mövcuddur. İşğaldan öncəki dövrdə rayon istehsal edilən düyünün keyfiyyəti ilə ön plana çıxır və seçilirdi. Xüsusilə, indiki iqtisadi vəziyyəti nəzərər aldığıqda ərzaq təhlükəsizliyi ilə əlaqədar ölkəmizdə müəyyən ölçüdə narahatlıq mövcuddur. Zaman keçdikcə tələbat artır, lakin torpaq sahələrinin azlığı təklifin tələblə düzmütənasib şəkildə artmasına maneə törədir (Vəliyev A., 2019: s. 64). Buna görə də işğaldan azad edilən torpaqların hər bir qarışı iqtisadi cəhətdən əkinçilik üçün, ərzaq təhlükəsizliyi üçün olduqca faydalı olacaqdır. Bundan sonra məhsuldarlığı artırmaq daha önəmlidir. Nümunə olaraq göstərə bilərik ki, Azərbaycan özünü süd məhsulları ilə təmin edə bilsə də, buğda ilə tam olaraq təmin edə bilmir. Müasir dövrə nəzər yetirsək, kənd təsərrüfatı və onun inkişafı ölkəmiz üçün prioritet bir istiqamətdir. Torpaqlardan səmərəli şəkildə istifadə etmək həm ölkə tələbatını ödəməyə, həm də ixrac potensialını artırmağa böyük ölçüdə dəstək olacaqdır.

İşğaldan azad olunmuş ərazilərdə üzümçülük hələ keçmiş dövrlərdə qiymətli kənd təsərrüfatı sahəsi olmuşdur. Həm müxtəlif növ ərzaq məhsullarının istehsalında, həm də alkoqollu içki istehsalında, yəni şərabçılıqda əsas xammal ehtiyatı üzümdür. Hazırki dövrdə aparılan araşdırmalar və görülən tədbirlərə

baxdıqda görürük ki, yüksək məhsuldarlığı və əhalinin gündəlik məişət həyatında ənənəvi yer tutması üzümçülüyün yenidən geniş şəkildə inkişaf etdirilməsi üçün tələbat yaradır. İşğalından öncəki illərdə Qarabağ ətrafı rayonlarda üzümçülük daim prioritet təşkil etmişdir. Üzümçülük həmçinin böyük gəlir mənbəyidir və bununla yanaşı əmək tutumu böyük olan sahədir. Buna görə bu sahədə yeni iş yerlərinin açılması kənd əhalisinin də işlə təmin olunmasına şərait yaradacaqdır. Üzümçülüyün inkişafı üçün çəkilən bütün xərclər, qoyulan invesitisiyalar yüksək iqtisadi effektivlik ilə nəticələnəcəkdir. Bu səbəbdən işğaldan azad edilmiş ərazilərdə üzümçülük və şərab istehsalının yenidən bərpa edilməsi böyük iqtisadi əhəmiyyətə malikdir. Xüsusilə, Ağdam və Füzuli kimi üzümçülüyün potensial mərkəzləri olan ərazilərə daha çox diqqət yetirilməlidir.

## 1.2. Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində iqtisadiyyatın yenidən qurulmasının müqəddəm şərtləri

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin iqtisadi inkişafdan öncə yenidən canlandırılması, yəni yenidənqurma və bərpa prosesi dövlətin iqtisadi və sosial siyasətində mühüm yer tutur. Bunun üçün bir sıra təmizlik məsələləri, o cümlədən minatəmizləmə işləri aparmaq, təhlükəsizlik tədbirləri görmək və iqtisadiyyatın kökünü, təməllərini ata biləcək bir zəmin yaratmaq lazımdır. Yəni, ilk növbədə infrastruktur yenidən bərpa olunmalı, restrukturizasiya işləri aparılmalı, əhali köçürülməli, əraziyə mütəxəssislər cəlb olunmalı, potensial iqtisadi istiqamətlər analiz olunmalı, külli miqdarda maliyyə və investisiya paketləri ayrılmalı, həmçinin bir çox xarici investorlarla ərazinin iqtisadi potesialının nə qədər güclü olduğu haqqında əlaqələr qurulub müqavilələr imzalanmalıdır.

Bütün bunları nəzərdən keçirdikdə isə görə bilərik ki, sadaladığımız şərtlər, addımlar asanlıqla və tez bir zamanda reallaşacaq proseslər deyildir. Hər biri addım-addım analiz edilərək planlaşdırılıb ərsəyə gətiriləcək bəndlər, istiqamətlərdir.

Ərazilərin minalardan təmizlənməsi prosesinin bütün tədbirlərdən əvvəl başlamasına baxmayaraq, bu proses yenidənqurmanın sonrakı mərhələləri çərçivəsində də davamlı şəkildə davam etdirilə bilər.

**Sxem 1: Minatəmizləmə fəaliyyətinin mərhələli təsviri**

***Hazırlıq Mərhələsi***

Minatəmizləyən qurumların (ANAMA) hərtərəfli fəaliyyəti üçün şərait hazırlanır. Təlim-hazırlıq mərkəzləri yaradılır, maddi-texniki təminat strukturları qurulur, ilkin araşdırma və əməliyyatlar aparılır.

***İkinci Mərhələ***

Səmərəli fəaliyyət üçün baş plan tərtib edilir. Bu baş plan həm bərpa və yenidənqurma tədbirləriylə, həm də minatəmizləmə sisteminin müxtəlif quruluş cəhətləri ilə əlaqələndirilməlidir.

***Üçüncü Mərhələ***

Əsas minatəmizləmə işlərinə başlanılır. Əvvəlki mərhələlərdə əsası qoyulmuş informasiya bazası genişləndirilib, dekontaminasiya işləri ən üst səviyyəyə çatdırılır. Prioritet olaraq seçilmiş ərazilərdə tam gücdə işlər aparılır.

***Dördüncü Mərhələ***

Bütün ərazilərin kütləvi şəkildə minalardan təmizləndiyi zamanı əhatə edir. Ərazidə qurulmuş təşkilatlar tam formada təchiz edilmiş, əməkdaşları ilkin mərhələləri keçərək ixtisaslaşmışlar.

**Mənbə:** Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar (2010).

Buradan da belə qənaətə gəlmək olar ki, ilk planda təmizlik işlərinin reallaşdırılması durur ki, bunun həyata keçirilməsi vəzifəsi Azərbaycan Silahlı Qüvvələri və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) professional mütəxəssislərinin üzərinə düşür. Müharibə dövrünün qalıntıları, hələ də aşkarlanmamış minalanmış ərazilər, hərbi bazalar, talan edilmiş binaların və evlərin dağıntıları, silah və avadanlıqlar yığılaraq götürülməlidir. Çünki, bunlar əhalinin köçürülməsi və yeni obyektlərin tikilməsi üçün maneə törədəcək nüanslardır.

Həmçinin restrukturizasiya prosesini həyata keçirməyi gecikdirərək daha uzun müddətə həyata keçməsinə səbəb olacaq məsələlərdir. Buna görə də xüsusi texnologiya və mütəxəssislər cəlb olunaraq ərazi araşdırılmalı, dağıdılmış xarabalıqlar tamamilə sökülməli və artıqlıqlar təmizlənməlidir ki, yenidənqurma işləri üçün şərtlər uyğun olsun. (Müzəffərli N., 2010: s.72).

Növbəti görüləcək tədbir isə infrastrukturun restrukturizasiyasıdır. Burada görülməli olan ilk iş isə yeni yolların çəkilməsi və körpülərin inşasıdır. Çəkiləcək yollar təbii ki, iqtisadi baxımdan da işğaldan azad edilmiş ərazilərin iqtisadiyyatına təsir göstərəcək. Lakin, ilk növbədə onların sərnişin və yük daşınma imkanları vurğulanmalıdır. Ərazidə yeni binalar, evlər tikiləcəksə, təbii ki, bunun üçün tikinti avadanlıqları və ləvazimatları əraziyə daşınmalıdır. Bunun üçünsə, yolların bərpası və yeni yolların çəkilməsinin əhəmiyyəti ön plana çıxır. Rayonların əksəriyyətinin ərazisi dağlıq olduğu üçün yüksək texnologiya və avadanlıqlar gətirilərək daha güvənli və rahat nəqliyyat istifadəsini təmin edən yollar çəkilməlidir. Artıq yollar çəkildikdən sonra ərazinin relyefini araşdıracaq mütəxəssislər və tikiləcək obyektlərin təməl sxemini quracaq memarlar əraziyə cəlb oluna bilər. Bütün bunları enerji ilə təmin etmək üçün elektrik stansiyaları qurulmalı və xəttlər çəkilməlidir. Həmçinin su təminatı üçün ərazidən axan çaylardan su boruları və bundan başqa istilik üçün qaz borularının çəkilməsi ön planda gələn məsələlər kimi qeydə alınmalıdır.

Yeni evlər, bina və iaşə obyektləri tikildikdən sonra yaşamaq və iqtisadiyyatın təməllərini atmaq üçün əhalini buraya köçürmək mümkündür. Əhalinin buraya köçürülməsiylə iqtisadiyyatın təməllərini qurmağa başlayacaq işçi qüvvəsini təmin olunacaqdır. Xüsusilə, yaradılacaq iqtisadiyyat sahələri üzrə bilik və təcrübələri olan işsiz əhalinin ərazidə yerləşdirilməsi həm ölkə iqtisadiyyatına güclü təsir edəcək, həm də ölkə daxilindəki işsizlik səviyyəsini ciddi dərəcədə azaldacaqdır.

Hazırda ölkə daxilində bacarıq və potensialı yüksək olan, çox sayda mütəxəssis mövcuddur. Onların köməyi ilə işğaldan azad edilmiş ərazilər öz iqtisadi gücünü yenidən geri qaytara, hətta öncəkindən daha da yüksək səviyyəyə qalxa bilər.

İşğaldan azad edilmiş ərazilərdə aqrar sahəni, o cümlədən əkinçiliyi yenidən dirçəldilib Azərbaycanın kənd təsərrüfatı ehtiyatını artıra və tələbatları lazımınca ödəmək mümkündür. Bundan əlavə, heyvandarlıq daha da geniş şəkildə inkişaf etdirilə və bir çox sektora xammal təminatçısı kimi dəstək ola bilər. Bir çox sənaye sektorunun yenidən canlandırılmasına şərait yaradıla və bölgədə inşa ediləcək şirkətlər buraya köçürülmüş insanların sayəsində güclü beyin kapitalı ilə təmin oluna bilər.

Bütün bunlarla yanaşı, diqqət mərkəzində olmalı olan əsas məsələ burada yaşayacaq insanların yaşayış və həyat səviyyəsidir ki, bu da iqtisadiyyatın inkişafının əsas göstəricilərindən biridir. Çünki, iqtisadiyyatın inkişafına təkan verən əsas qüvvə insan kapitalıdır, onun yaratdığı yeniliklərdir. Rayonlarda inşa ediləcək yeni məktəblər, təhsil ocaqları iqtisadiyyatın davamlı inkişafını təmin edəcək potensiallı güclü kadrlar yetişdirəcəkdir.

Potensial işçi qüvvəsi zəmini də yaradıldığı təqdirdə, ümumi olaraq işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialını daha dərindən araşdıra bilərik. Nəzərə alsaq ki, zamanında aqrar sektor Qarabağ və ətraf rayonlarda inkişaf etmiş iqtisadi sahə idi, işləri ilk növbədə bu istiqamətdə qurmaq daha məqsədəuyğun olardı.

Ümumilikdə, rayonların hər birinin torpağı və torpağının münbitliyi, yaxınlığında suvarma üçün kifayət qədər mənbənin olması kimi məsələlər araşdırıldıqdan sonra hansı ərazilərin əkinçiliyə daha faydalı olduğu dəqiq şəkildə müəyyən edilə bilər. Daha sonra həmin ərazilərdə hansı növ bitkilərin əkilməsi üçün uyğun iqlim tiplərinin olduğu araşdırıla və həmçinin, fərqli növlərdə yeni bitkilərin əkilməsinin pilot layihələri əsasında həyata keçirilməsi öncədən planlaşdırıla bilər. Öncədən də qeyd etdiyimiz kimi, Azərbaycan əkinçilik baxımından torpaq sahəsi olduqca az olan ölkə olduğu üçün ölkədə ərzaq təhlükəsizliyi məsələsi prioritetdir (Abbasov İ., 2013: s. 69).

Bu səbəbdən əkinçiliyə faydalı torpaqların öncədən qarışbaqarış dəqiq şəkildə ölçülməsi ölkə iqtisadiyyatının xeyrinə atılmış addım olar. Həmçinin, əkiləcək məhsul miqdarının dəqiqləşdirərək gələcəkdə Azərbaycan bazarına çıxarılacaq və ixrac olunacaq məhsul miqdarını da müəyyən etmək mümkün olacaqdır. Bundan

əlavə, ona da diqqət etməliyik ki, məhsul miqadarı artsa belə, limitli bir səviyyədə olacaqdır. Buna görə əkinçilikdə ekstensiv inkişafdan çox intensiv inkişafa doğru istiqamətlənmək, yəni məhsulun miqdarı ilə yanaşı keyfiyyətini də ön plana çıxarmaq daha məqsədə uyğun olacaqdır.

Heyvandarlıq istiqamətində yeni addımların atılması aqrar sənayenin inkişafı üçün əhəmiyyətlidir. Qış və yay otlaqlarının müəyyənləşdirilməsi bu prosesdə ikinci plandadır. İribuynuzlu və xırdabuynuzlu heyvandarlığın faiz nisbətini rayonlar üzrə hesablayaraq, planlı şəkildə irəliləmək lazımdır. Bu mərhələlər başa çatdıqdan sonra artıq ərazidə heyvandarlığın təməllərinin atılması, yeni növ qoyun cinslərinin ərazidə böyüdülərək yüngül sənaye sektoruna gətirəcəyi faydaların hesablanması mərhələsi ortaya çıxacaqdır (Piriyev Ə., 2021: s. 197). Əkinçilikdən fərqli olaraq heyvandarlıqda intensiv deyil ekstensiv inkişaf planının tətbiq edilməsi daha çox fayda gətirəcəkdir. Çünki hazırki dövrə nəzər yetirsək görərik ki, heyvandarlıq məhsullarının keyfiyyəti baxımından ölkədə gözlə görüləcək dərəcədə problem yoxdur. Sadəcə məhsul miqdarının azlığı baxımından problem mövcud olduğu üçün heyvandarlıqda say artırmaq və sahəni genişləndirmək öndə gələn məsələ olmalıdır.

Bu proseslər tamamlandıqdan sonra artıq aqrar sektor, metallurgiya, yüngül sənaye və s. kimi sektroların fəaliyyətini təmin edəcək fabriklər, zavodlar və firmaların inşa edilib fəaliyyətə başlamasına ehtiyac yaranacaqdır. Ərazinin mövcud mineral resurs və faydalı qazıntı yataqlarının aktual vəziyyəti, yerləri müəyyənləşdirilməlidir. Daha sonra artıq əraziyə mütəxəssis və avadanlıqlar gətirilməlidir ki, resursları xammal şəklində çıxarıb emala göndərmək üçün fəaliyyət mümkün olsun. Bütün bu tədbirlər həyata keçirilərkən rayonların təbii örtüyünün pozulmamasına da diqqət yetirilməlidir. Çünki rayonların flora və faunası turizm sektorunun potensial ehtiyyatının təməlini təşkil edir. Müəssisələr yaradılarkən mövcud vəziyyət təhlil edilməli və işçilərin əmək şəraitini, işçi təhlükəsizliyini təmin edəcək tədbirlər görülməlidir. Dağ-mədən sənayesi qəzaların və çətinliklərin tez-tez qarşılaşıldığı sektordur. Bu səbəbdən ilk addımlar atılarkən bütün ehtimallar nəzərə alınmalı, işçi təhlükəsizliyini təmin edəcək qurğular və alətlərin gətirilməsi üçün xərclərdən qaçınılmamalıdır. Bundan əlavə, şirkət və firmaların həyata

keçirdiyi, KSM programları onların prestijlərini daha da artıracaqdır. Həmçinin, daxildə görüləcək tədbirlərlə kadrların çalışdıqları sektora daha çox mənfəət gətirmələrinə şərait yaradacaqdır. Ərazidə yaradılacaq şirkətlərin naliyyət qazanaraq fəaliyyət göstərdikləri sektorda inkişaf etmələri, təbii ki, idarəetmədən də asılıdır.

Son 30 ilə yaxın zaman dilimində heç bir araşdırma, iqtisadi yenilik, inkişaf olmamış torpaqlarda iqtisadi tədbirlərin həyata keçirilməsi, təbii ki, olduqca riskli prosesdir. Buna görə də yenidənqurma və bərpa işlərini zəmanət altına almaq üçün ərazidə fəaliyyət göstərəcək şirkətlərə təcrübəli şəxslərdən ibarət idarə heyəti təyin edilməlidir. Ərazilərin minalardan təmizlənməsindən sonra yenidən məskunlaşma və iqtisadi cəhətdən inkişaf məqsədilə yaradılmış Qarabağ Dirçəliş Fondu sosial-iqtisadi tədbirlərlə yanaşı, digər işlərə də maliyyə dəstəyi göstərəcəkdir.

Daha perspektivli sahə olan aqrar sektorun inkişafı aşağıdakı şərtlərin ödənilməsini tələb edir:

1) ərazilərin kənd təsərrüfatı istehsalı üçün yararlı hala salınması;
2) bu torpaqlardan istifadə formasının müəyyənləşdirilməsi;
3) əhaliyə vacib dəstəyin dövlət tərəfindən göstərilməsi üçün müvafiq mexanizmin yaradılması;
4) torpaq sahələrinin yerli sakinlərə verilməsi.

Bu mərhələlərdə diqqət yetirilməli, məhdudlaşdırıcı olan 2 əsas amil var: Bu mərhələlərdə diqqət yetirilməli, məhdudlaşdırıcı olan 2 əsas amil var: xərclərin minumuma endirilərək, bu işlərə cəlb ediləcək yüksəkixtisaslı kadr sayını maksimuma çatdırmaq. Lakin bu şərtlər də yetərli deyildir. Belə ki, təsərrüfat subyektləri üçün düzgün təşkilati-hüquqi forma seçilməlidir. Torpaq islahatları sahəsində 25 illik təcrübəyə malik dövlətin birbaşa dəstəyi ilə hər bir mərhələ uğurla həyata keçirilə və proses qoyulan məqsədləri icrasə ilə başa çata bilər.

Son olaraq, işğaldan azad olunmuş ərazilərin turizm potensialının araşdırılması zərurətini də vurğulaya bilərik. Bu sektorun inkişafı üçün müqəddəm şərtlər sırasında relyef, iqlim və infrastruktur böyük əhəmiyyət kəsb edir.

Bölgənin təbiət  faktorları araşdırıldığı təqdirdə əraziyə görə yay, qış, dini, mədəni və digər turizm növlərindən hansının tətbiq ediləcəyi müəyyənləşdirilə bilər.

Yay üçün otellərin, əyləncə parklarının, hovuzların inşaası, qış üçün dağ otellərinin, xizək platformalarının inşaası, tarixi abidələrin, binaların quruluş və təməlinə zərər vermədən və ya dəyişdirilmədən bərpası bu araşdırmaların, tədqiqatların nəticəsi ola bilər. Müalicə turizminin potensialını araşdıraraq bu sahə üzrə inkişaf etmiş bir çox ölkə və ya şəhərin təcrübələrini burada tətbiq etmək mümkün olardı. Bu sektor üzrə inkişafın əsas təməli, şərti turist tələbatıdır. Sektorda xidmətlər nə qədər yaxşı olsa da, tələbatlar lazımi şəkildə ödənmədiyi təqdirdə turizm inkişaf baxımından geridə qalacaqdır (Məmmədov E., 2013: s. 89). Bu səbəbdən də müasir dövrdə aktual turist tələbatını araşdırmaq, sektorda tətbiq etmək əsas şərt olmaqla yanaşı, turistlərin məmnuniyyətini də təmin edəcək bir addımdır.

İqtisadi inkişafın digər mühüm şərtlərindən biri də hər bir sektorun özünə investisiya cəlb etmə bacarığıdır. Öncədən qeyd edilən tədbirlərlə yanaşı, əlavə tədbirlər görülməlidir ki, yerli və xarici investorlar sektorlara investisiyanı çəkinmədən, tərəddüd etmədən qoysunlar. Nəzərə alsaq ki, sektor inkişaf meyilli deyil, potensialı zəifdir yaxud da güclüdür, lakin bunu göstərə bilmir, təbii ki, bu halda heç bir investor maddi cəhəttən itki yaşamaq, gəlir əldə etməyəcəyi yerə investisiya qoymaq istəməz. Buna görə də reklam sahəsində də bir çox tədbirlər görülməlidir. Ayrıca qeyd edə bilərik ki, yeni bazarlara meyl etmək bir çox investor üçün arzuolunan haldır. Çünki güclü bazar rəqabəti şəraitində çətinlik çəkənlər üçün mavi okean strategiyası daha məqsədə uyğundur. Yeni biznes müəssiləri və bazarların yaradılması bazar rəqabətindən qaçan şəxslər üçün ideal variantdır. Buna görə də əraziyə maliyyə dəstəyi göstərilməsi, investisiya cəlb edilməsi, habelə bir çox xarici şirkətin filialının burada fəaliyyətə başlaması aparılan marketinq siyasətindən asılıdır.

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN İQTİSADİ İNKİŞAF POTESİALININ TƏHLİLİ

## 2.1. İşğaldan azad olunmuş ərazilərin işğal dönəminə qədər olan iqtisadi vəziyyətinin statistik təhlili

İşğaldan azad edilmiş ərazilərin əsas iqtisadi potensialına nəzər saldıqda, Azərbaycan Respublikasının Qarabağ ətrafı inzibati rayonlarının (Laçın, Cəbrayıl, Qubadlı, Zəngilan, Kəlbəcər, Füzuli, Ağdam) 1989-1993-cü illərdə Ermənistan işğalına məruz qaldığını və elə həmin dönəmdən tarixi Zəfər Gününə qədər talançılıq, qeyri-səmərəli istismara məruz qalmasını, regionun infrastrukturunun tamamilə dağıdılmasını, demək olar ki, yox səviyyəsinə gətirildiyini müşahidə edirik.

Ölkənin ən qədim yaşayış və mədəniyyət məskəni olan Qarabağ bölgəsi öz coğrafi mövqeyinə görə respublikanın təbii sərvət və iqtisadi artımına təsir göstərmək qabiliyyəti ilə seçilir. Ancaq buraya hələ 18-ci əsrdən etibarən, planlı şəkildə köçürülən ermənilərin ərazi iddiaları və nəticə olaraq da 1988-ci ildən aydın surətdə münaqişə xarakteri almış separatçılıq meyilləri, 30 illik dövr ərzində bu geniş potensialdan istifadə imkanlarını heçə endirmiş və ölkə iqtisadiyyatı ərazinin ümumi inkişafa təsir potensialını tamamilə itirmişdir (Vəliyev A.H., 2019: s.19). Sözügedən münaqişənin hərbi mərhələsi isə, erməni silahlı qüvvələrinin 1991-1992-ci illərdə başlamış daxili proseslər, keçmiş sovet məkanının dağılması nəticəsində yaranmış qeyri-sabit siyasi vəziyyətdən istifadə edərək, Qarabağın dağlıq hissəsi və ətraf yeddi rayonunu tamamilə işğal etməsi ilə başlamışdır.

Azərbaycan ərazi potensialının təqribən 18,6%-ni və inkişafa təsir edə biləcək, həmçinin transkontinental əlaqələr üçün əlverişli olan geosiyasi mövqeyini əhəmiyyətli dərəcədə itirmişdir. Bu illər ərzində, sözügedən bölgədə 150 min ev, 900 yaşayış məntəqəsi, 7 min ictimai bina, 693 tibb müəssiəsi, 927 kitabxana, 473 tarixi abidə, 44 məbəd, 9 məscid, 693 məktəb, 6 min kənd təsərrüfatı və sənaye müəssisəsi, bir çox infrastruktur obyektləri dağıdılmış və ən əsası isə 540,4 min nəfərdən artıq bölgə sakininin məcburi köçkün olaraq, məhsuldar iqtisadi fəaliyyətlə məşğul olmaları məhdudlaşmışdır (Əliyev Ş.T., 2021: s. 253).

Qarabağ regionunun 1988-ci ildən işgal dönəminə qədər itirlmiş iqtisadi ərazi potensialını aşağıda aydın şəkildə görmək olar.

**Cədvəl 3: Qarabağ regionun münaqişə nəticəsində 1988-1993-cü illər ərzində itirilmiş iqtisadi ərazi potensialı**

| İtirilmiş ərazilər | Sahəsi (km2 ) | Əhalisi (min.nəfər.) |
|---|---|---|
| **Xankəndi** | 926 | 57,0 |
| **Laçın** | 1893 | 69,1 |
| **Zəngilan** | 707 | 32,5 |
| **Xocalı** | 970 | 11,6 |
| **Kəlbəcər** | 3050 | 43,7 |
| **Füzuli** | 1112 | 95,94 |
| **Cəbrayıl** | 1050 | 52,05 |
| **Tərtər** | 957 | 97,3 |
| **Şuşa** | 289 | 24,9 |
| **Xocavənd** | 1458 | 9,01 |
| **Qubadlı** | 802 | 31,5 |
| **Ağdam** | 1154 | 15,8 |
| **Qarabağ Regionu üzrə** | 14368 | 540,4 |
| **Qarabağ regionunun Respublikada xüsusi çəkisi %-lə** | 18.6 | 7.3 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/, 2021

İqtisadi cəhətdən məsələyə nəzər saldıqda, ərazi potensialı ən mühüm inkişaf predmeti hesab olunur. Bu mənada, bölgədə iqtisadi inkişaf göstəricilərinə xüsusi təsiri ilə fərqlənən mineral xammal yataqları, kənd təsərrüfatına yararlı torpaqlar, bölgədaxili turizmin əhəmiyyətli amillərindən olan təbii-iqlim şəraiti, təbii su ehtiyatları və s. özünəməxsus yer tutur.

İşgaldan öncə Dağlıq Qarabağ bölgəsi ölkənin digər rayonları ilə qarşılıqlı iqtisadi əlaqədə, inkişafda olmuşdur. Müxtəlif istiqamətlərdə keçən yollar bu əraziləri iqtisadi cəhətdən də sıx bağlamışdır. Məhz, bölgənin mərkəzi olan Xankəndi şəhəri  vaxtilə Azərbaycan dəmir və şosse yollarına, ümumikdə isə ölkənin nəqliyyat-kommunikasiya sisteminə birbaşa bağlı olmuşdur.

Xankəndindən ölkə paytaxtına qədər olan dəmir yolu məsafəsi 392 km təşkil edirdi. Məhz, bu nəqliyyat-kommmunkasiya sistemi sayəsində ərazidə fəaliyyət göstərən müəssisələrin böyük qismi digər rayonlardan təmin olunan xammal, yanacaq və materiallar əsasında işləmiş, bəziləri isə Bakıda yerləşən irihəcmli müəssisələrinin filialı olaraq fəaliyyətini davam etdirmişdir.

Belə ki, 1985-ci ildə Xankəndində fəaliyyət göstərən İpək Kombinatını təchiz edən xammalın ümumilikdə 8%-i Dağlıq Qarabağda istehsal olunurdu. Yerdə qalan xammal isə ölkənin digər rayonlarından gətirilməklə təmin edilirdi.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, işğal illərinə qədərki dövrdə regionda ümumi 139.8 min hektar əkin sahəsi mövcud olmuşdur. Belə ki, iqtisadi göstəricilərə əsasən əkin sahələrinin strukturunda və bitkiciliik məhsullarının istehsalında üzüm və taxıl sahələri əsas paya sahib olmuşdur.

**Cədvəl 4: 1980-cı illər üzrə əkin sahələrinin strukturu, ha ilə.**

| | Taxıl | Üzüm | Tərəvəz | Meyvə və giləmeyvə | Tütün | Pambıq | Cəmi sahə |
|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | 37,776 | 11,211 | 1317 | 1,701 | 198 | - | 52,203 |
| **Füzuli** | 13,214 | 14,148 | 201 | 76 | - | 600 | 28,239 |
| **Cəbrayıl** | 8,995 | 6,570 | 144 | 48 | - | - | 15,757 |
| **Ağdam** | 7,660 | 13,042 | 259 | 287 | - | 7,565 | 28,813 |
| **Laçın** | 3,852 | - | 63 | 175 | 83 | - | 4,173 |
| **Qubadlı** | 3,401 | 997 | 88 | 91 | 589 | - | 5,166 |
| **Zəngilan** | 1,929 | 2,391 | 61 | 57 | 359 | - | 4,797 |
| **Kəlbəcər** | - | - | 6 | - | 660 | - | 666 |
| **Cəmi sahə** | 76,827 | 48,359 | 2139 | 2,435 | 1,889 | 8,165 | 139,814 |
| **Ölkə üzrə cəmi sahəyə nisbəti, %** | 14.3 | 24.7 | 10.9 | 1.8 | 11.6 | 2.7 | 7.7 |

**Mənbə:** ARDSK. https://agroeconomics.az/az, 2020

**Cədvəl 5. 1980-ci illər üzrə bitkiçilik məhsullarının istehsalı, min ton ilə.**

| | Taxıl | Kartof | Bostan | Tərəvəz | Tütün | Pambıq | Meyvə və giləmeyvə |
|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | 100.1 | 2.77 | 0.3 | 6.6 | 0.3 | - | 1.1 |
| **Füzuli** | 31.9 | - | 0.5 | 0.6 | - | 1.5 | 0.05 |
| **Cəbrayıl** | 20.1 | 0.01 | 0.3 | 0.5 | - | - | 0.03 |
| **Ağdam** | 30.1 | 0.01 | 0.9 | 1.4 | - | 19.3 | 0.48 |
| **Laçın** | 3.0 | 0.05 | 0.02 | 0.4 | 0.1 | - | 0.02 |
| **Qubadlı** | 6.7 | 0.06 | 0.1 | 0.01 | 2.1 | - | 0.01 |
| **Zəngilan** | 4.6 | 0.06 | 0.05 | 0.1 | 1.3 | - | 0.04 |
| **Kəlbəcər** | - | - | 0.01 | - | 0.9 | - | - |
| **Cəmi** | 196.5 | 2.96 | 2.18 | 9.61 | 4.7 | 20.8 | 1.73 |
| **Ölkə üzrə nisbət, %** | 13.9 | 1.8 | 3.4 | 1.1 | 8.1 | 3.4 | 0.4 |

**Mənbə:** ARDSK. https://agroeconomics.az/az, 2020

Dövlət Statistika Komitəsinin məlumatlarına görə, keçən əsrin 80-ci illərində region təsərrüfatlarında cəmi 321 min baş iribuynuzlu və təqribən, 1.1 milyon baş

xırdabuynuzlu heyvan saxlanılmışdır. Bu heyvanların say strukturunun respublika üzrə olan saya faiz nisbətinə nəzər saldıqda (hazırda məcburi köçkünlərin malik olduğu heyvan təsərrüfatları ilə birlikdə regiona qayıtması da nəzərə alınmaqla) günümüzdə təxminən nə qədər ümumi paya sahib olması ehtimal oluna bilər. (Cabbarlı L.A., 2020: s. 53).

İşgaldan azad olunmuş ərazilərdə otlaq və yaylaqların çoxluğu, təsərrüfatçılıq ənənələrinin bu istiqamətdə olması bitkiçilik sahəsinin ənənəvi istiqamətlərinin bərpası ilə bərabər, həm də bölgədə heyvandarlığın inkişafına daha çox üstünlük verilməsi, habelə relyef və təbii iqlim özəllikləri nöqteyi-nəzərindən daha əlverişli hesab edilməsinin reallığını özündə əks etdirir.

Ötən əsrin son illərində heyvandarlığın rayonlar üzrə əsas iqtisadi göstəriciləri müfagiq cədvəldə ətraflı olaraq qeyd olunmuşdur.

**Cədvəl 6: Heyvanların baş sayı, min baş**

| | Xırdabuynuzlu heyvanlar - cəmi | İribuynuzlu heyvanlar - cəmi | ondan inək və camışlar |
|---|---|---|---|
| Qarabağ | 264.3 | 95.6 | 30.7 |
| Füzuli | 149.0 | 37.8 | 13.4 |
| Cəbrayıl | 114.2 | 26.4 | 8.9 |
| Ağdam | 191.8 | 44.4 | 16.4 |
| Laçın | 224.8 | 43.0 | 14.8 |
| Qubadlı | 30.6 | 22.8 | 8.3 |
| Zəngilan | 34.6 | 19.1 | 6.8 |
| Kəlbəcər | 97.4 | 31.9 | 11.0 |
| Cəmi heyvan sayı | 1,106.7 | 321.0 | 110.3 |
| Ölkə üzrə cəmi heyvan sayına nisbəti, % | 19.3 | 16.2 | 14.8 |

**Mənbə:** ARDSK. https://agroeconomics.az/az, 2020

Aqrar-sənayenin tərkib hissəsi olan heyvandarlıq məhsullarının göstəricilərini nəzərə alaraq, aqrar-sənaye kompleksinin iqtisadi artım planı, eləcə də dirçəliş proqramı, tarixi və statistik inkişaf fonu nəzərə alınmaqla, davamlı inkişaf üçün tələb olunan mühüm vasitə kimi qəbul edilə bilər.

**Cədvəl 7: Əsas heyvandarlıq məhsullarının istehsalı, min ton**

| | Süd | Ət | Yumurta (mln. ədəd) |
|---|---|---|---|
| Qarabağ | 53.9 | 10.9 | 31.7 |
| Füzuli | 20.0 | 2.8 | 11.8 |
| Cəbrayıl | 14.0 | 2.3 | 11.4 |
| Ağdam | 24.4 | 3.8 | 19.2 |
| Laçın | 13.9 | 3.3 | 4.1 |
| Qubadlı | 12.1 | 1.3 | 4.4 |
| Zəngilan | 9.2 | 1.1 | 3.6 |
| Kəlbəcər | 16.3 | 2.0 | 8.1 |
| Cəmi heyvan sayı | 163.8 | 27.5 | 94.3 |
| Ölkə üzrə cəmi heyvan sayına nisbəti, % | 15.4 | 14.9 | 8.8 |

**Mənbə:** ARDSK. https://agroeconomics.az/az, 2020

Məlumdur ki, Qarabag bölgəsi öz əsrarəngiz təbiəti, o cümlədən, zəngin flora və faunası ilə də hər zaman seçilmişdir. İşgaldan öncə bölgədə dövlət təbiət qoruqları və yasaqlıqları mövcud olmuşdur.

1987-ci ildə Qarabağ vulkanik yaylasının cənubunda, dəniz səviyyəsindən 2700 m hündürlükdə yerləşən "Qaragöl Dövlət Təbii Qoruğu" yaradılmış, respublikalararası dövlət qoruğu elan olunmuşdur. Bu qoruğun sahəsi 240 hektara çatır. (Xəlilov M.Y., Məmmədov Q.Ş., 2002: s. 98) Belə ki, qoruğun ərazisi üçün qışı quraq keçən soyuq iqlim tipi xarekterikdir. Azərbaycanın nadir dağ göllərindən olan, "İşıqlı Qaragöl" bu qoruğun xüsusi obyektlərindəndir. Laçın rayonununda yerləşən göl sərhəd gölü statusunu daşıyır. 90-cı illərə qədər "İşıqlı Qaragöl" ölkə üçün hidroloji əhəmiyyət daşımaqla yanaşı, balıqçılıq təsərrüfatları üçün istifadə olunmuş, həmçinin heyvandarlığın da inkişafına töhfə vermişdir. Bitki örtüyü torpaq sahəsinin kiçikliyi səbəbindən zəngin olmasa da, faunası heyvan və balıqları ilə fərqlənir: burada tülküyə, dovşana, canavara, forelə, Göyçə alabalığına, qızıl balığa rast gəlmək olar.

Zəngilan rayonu ərazisində 1974-cü ildə "Bəsitçay Dövlət Təbiət Qoruğu" yaradılmışdır. Əsasən dağlıq ərazidən ibarət, dəniz səviyyəsindən 650-800 metr hündürlükdə yerləşən və 107 hektarlıq torpaq sahəsi ilə ölkənin ən kiçik qoruğu olan bu təbiət abidəsinin iqlimi qışı quraq keçən mülayim-isti olaraq səciyyələnir.
Buradakı meşə sahəsinin əsasını Azərbaycanın "Qırmızı Kitab"ına salınmış çinar

ağacları təşkil edir (Xəlilov M.Y., Məmmədov Q.Ş., 2002: s.162). Ərazidə qarışıq meşəliklərdə həmçinin, qoz, söyüd, tut, qovaq ağacları, qaratikan, yemişan, itburnu kolları bitir. Qoruqda porsuq, çöl donuzu, cüyür, kimi heyvanlara, turac, kəklik quşlarına rast gəlmək olar.

1961-ci ildə Laçın rayonunun 21.4 min hektarlıq ərazisində “Laçın Dövlət Təbiət Yasaqlığı” salınmışdır. Əsas məqsədi ərazidəki qayakeçisi, cüyür, çöl donuzu, dələ, ayı və s. kimi məməli heyvanları, alabaxta, tetra quşu, bildirçin kimi quşları mühafizə edib artırmaq olan yasaqlığın bitki örtüyünü cökə, palıd, ağcaqayın, vələs ağacları təşkil edir . (Əsgərov A. M., s.125).

1969-cu ildə Laçın rayonunun cənubundakı və Qubadlı rayonunu şimalındakı 20 min hektarlıq bozqır-dağ sahələrində “Qubadlı Dövlət Təbiət Yasaqlığı” yaradılmışdır. Yasaqlıq ərazisində qonur ayı, çaqqal, tülkü, porsuq və s. məməlilərə, qırqovul, turac, kəklik və s. quşlara rast gəlinsə də, başlıca məqsədi floranın mühafizəsidir. Belə ki, yasaqlıq ərazisinin bitki örtüyü ardıc, cökə, vələs, palıd itburnu, yemişan, böyürtkən və digər ağac və kollardan ibarətdir.

1993-cü ildə isə tuqay meşələrinin qorunması üçün sahəsi 2.2 min hektar olan “Arazboyu Dövlət Təbiət Yasaqlığı” yaradılmışdır. Zəngin bitki örtüyünə malik yasaqlıq ərazisində tuqay meşələri ilə yanaşı, yulğun, şərq çinarı, ağyarpaq qovaq, saqqız ağacı, iydə, alça, vələs, biyan, böyürtkən, söyüd kimi ağac və kollar mövcuddur. Faunasını isə cüyür, qonur ayı, çöl donuzu, canavar, tülkü, qırqovul, kəklik, turac təşkil edir (Xəlilov M.Y., Məmmədov Q.Ş., 2002:s.243). Qeyd olunan bütün təbiət qoruq və yasaqlıqları işğal edildikdən əksər ərazilər kimi ekolji terrora məruz qalaraq, dövlət tərəfindən qorunan təbii zona statusunu itirmişdir.

## 2.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi inkişaf potensialının dəyərləndirilməsi

Post-müharibə dövründə onilliklər ərzində yaranmış problemlərin sistemli həllinə bariz şəkildə ehtiyac yaranmışdır. Son 30 ilə yaxın bir müddət ərzində işğalçılar Azərbaycan ərazilərini talan etmiş, meşə sahələrini qırmış, evləri yandırmış, infrastrukturu dağıtmış, bioloji və ekoloji sistemə çox ciddi ziyan

vurmuşdur. Qeyd olunan problemləri aradan qaldırıb bölgəni yenidən ölkənin dilbər guşələrindən birinə çevirmək üçün qarşıda duran əsas məsələ isə ilkin olaraq buradakı iqtisadi potensialın araşdırılıb ətraflı təhlil edilməsidir. Bəs bu potensial, əsasən, hansı sahələrdən, hansı həcmdən ibarətdir?

Qarabağ iqtisadi rayonu Şuşa şəhəri, Xankəndi şəhəri, Füzuli, Ağcabədi, Xocalı, Ağdam, Bərdə, Xocavənd və Tərtər inzibati rayonlarından ibarət olub, əraziləri əsasən qara və şabalıdı-qonur torpaqlardan təşkil olunmuşdur ki, bu da kənd təsərrüfatı üçün olduqca əlverişlidir (Məmmədov Q.Ş., 2010: s.324).

İşğaldan əvvəlki dövrdə, burada, daha əvvəl də qeyd olunduğu kimi, taxılçılıq, üzümçülük, meyvəçilik, baramaçılıq və tütünçülük kimi təsərrüfat sahələri inkişaf etmişdir. Xalqın ənənəvi məşğulluq sahələrindən olmuş, böyük əhəmiyyət kəsb etmiş arıçılığı da bu siyahıya əlavə etmək olar.

Şərqi Zəngəzur iqtisadi rayonunu isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan inzibati rayonları təşkil edir. Kənd təsərrüfatı rayonları olmaqla bərabər, Azərbaycanın mühüm heyvandarlıq bölgələsini formalaşdırmış, ərazisi maldarlıq, qoyunçuluq, arıçılıq kimi sahələr üzrə ixtisaslaşmışdır.

Region eyni zamanda öz yeraltı sərvətləri, o cümlədən faydalı qazıntıları ilə də zəngindir.

**Cədvəl 8: Regiondakı faydalı qazıntılar**

| Rayon | Faydalı qazıntı növü |
|---|---|
| **Ağdərə** | *Qızıl, qurğuşun, sink, mis, mişar daşı, gəc* |
| **Şuşa** | *Üzlük daşı, gil, tikinti daşı* |
| **Cəbrayıl** | *Mişar daşı, gil, qum, sement, gəc, tikinti daşı, kips, ahhidrid, pemza, vulkan külü, əlvan daşlar (yaşəm, xalsədan)* |
| **Xocalı** | *Gil, üzlük daşı, qum-çınqıl* |
| **Laçın** | *Civə, mişar daşı, üzlük daşı, tikinti daşı, gil, qum-çınqıl, pemza, vermukulit, vulkan külü, əqiq, jad* |
| **Xocavənd** | *Üzlük daşı, tikinti daşı* |
| **Ağdam** | *Mişar daşı, üzlük daşı, sement xammalı, gil, qum-çınqıl* |
| **Zəngilan** | *Qızıl, gümüş, üzlük daşı, əhəng daşı, gil, tikinti daşı, qum-çınqıl* |
| **Kəlbəcər** | *Qızıl, civə, mişar daşı, gil, perlit, qum-çınqıl, tikinti daşları, üzlük daşları, əlvan daşlar (obsidian, oniks, pefritoid, listvenit)* |
| **Füzuli** | *Mişar daşı, gil, qum-çınqıl* |
| **Qubadlı** | *Mişar daşı, gil, tikinti daşı, üzlük daşı, əlvan daşı* |

**Mənbə:** Dövlət Statistika Komitəsi. http://interfax.az/print/817974/az, 2020

Qarabağ bölgəsi respublikanın sənaye və tikintisində əhəmiyyətli rol oynayacaq fərqli tikinti materialları ilə zəngindir. Bu qəbildən olan materialların əksər ehtiyatları Ağdamın Çobandağ (140 milyon ton əhəng və 20 milyon ton gil ehtiyatı), Boyəhmədli (45 milyon ton gil ehtiyatı), Şahbulaq (25 milyon ton gil ehtiyatı) yataqlarında cəmlənmişdir. (Əliyev Ş.T., 2008: s. 253)

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərdə ümumlikdə 167 növdə faydalı qazıntı yataqları yerləşir ki, bunların da növünə görə bölgüsü aşağıdakı qrafikdə göstərilmişdir.

**Qrafik 1: İşğaldan azad edilən ərazilərdə faydalı qazıntı yataqları**




**Mənbə:** Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi (2022).

Bəhs olunan faydalı qazıntılar Dəmirli, Canyataq-Gülyataq, Ağdərə, Ediş, Şorbulaq, Şuşa, Şirlan, Çəlli, Turşsu, Xocalı, Ağçay, Mehmana,Kürdmahmudlu, Xankəndi, Xocavənd, Söyüdlü, Quşçu, Ağduzdağ, Tutxun, Laçın, Ağyataq, Levçay, KİlsəIi, Aşağı İstisu, Zərinbax, Göyərçin-Veysəlli, Keşdək, Çobandağ, Keçəldağ, Narzanlı, Boyəhmədli, Yuxarı İstisu, Mozçay, Qoturlu, Çilkəz, Əhmədli, Hoçaz, Qızılbulaq, Novruzlu, Minkənd, Gülablı, Hacılı, Xanlıq, Qubadlı, Vejnəli, Bartaz, Oxçuçay, Ağtəpə, Zəngilan, Şərifan, Tuluz, Qaracalı, Soltanlı, Dövlətyarlı, Qaxmaxçay, Minbaşılı, Şahverdilər, Qarqarçay, Çaxmaxqaya, Cəfərabad, Yuxarı Əkərəçay, Diləgərdi, Quruçay, Şahbulaq, Ağdam, Xaçımçay və digər yataqlarda aşkar edilmişdir. Bölgədə həmçinin, nadir və qiymətli faydalı qazıntı yataqları

aşkarlanmışdır. Böyük əhəmiyyətə malik mis-sink filiz ehtiyatları Kiçik Qafqazın Şərqindəki Mehmana yataqlarında cəmlənmişdir. Buradakı civə ehtiyatları isə əsasən Kəlbəcər rayonu ərazisindədir (Əliyev Ş.T., 2018: s. 253).

İşğaldan azad edilmiş ərazilərin daxil olduğu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları münbit torpaqlara və geniş su ehtiyatlarına malikdir. Bu, regionun yüksək aqrar potensialından xəbər verməklə, bölgədə aqrar-sənaye sahələrinin geniş inkişafı üçün əlverişli imkanlar ortaya çıxarır. Bütün bunlar da öz növbəsində regionun respublikanın ərzaq təhlükəsizliyinə əsaslı töhfə verəcəyinin carçısıdır. Dağlıq və dağətəyi ərazilərdən formalaşmış iqtisadi rayonlar, buradakı bitki örtüyünün zənginliyi, təbii mineral ehtiyatların çoxluğu, ekoloji saf mühit, zəngin tarixi-mədəni irs Qarabağa aqrar sektorla yanaşı, həm də ciddi turizm potensialı qazandırır.

Ümumi iqtisadiyyatda önəmli yeri olan aqrar sektor zamanında bölgə iqtisadiyyatnın da əsasını təşkil etmişdir. Belə ki, kənd təsərrüfatı, xüsusən də heyvandarlıq Laçın rayonunun iqtisadiyyatında aparıcı rola malik olmuşdur. İşğaldan sonrakı mərhələdə də bu torpaqlarda qoyunçuluq, mal-qara və arıçılıq təsərrüfatları yaradılmaqla regionun ən mühüm iqtisadi inkişaf sahələrindən birinə çevrilə bilər.

Taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük ildə 15 min tona qədər taxıl məhsulları, 12 min tona yem, 1520 ton tütün, 1200 ton ət, 2600 ton süd məhsulları, 133 ton üzüm, 10 ton yun, 52 ton barama istehsalı kimi göstəricilərlə Qubadlı rayonun iqtisadiyyatının əsasını formalaşdırmışdır. Ötən əsrin əvvəllərindən 60-cı illərinədək rayonda çəltik becərilmişdir. Cari dövrdə düyüyə olan tələbat nəzərə alınmaqla, bu sahənin inkişafı olduqca uğurlu addım sayıla bilər. Zəngilan rayonunun ərazisində əkilmiş 7204 ha ərazi 307 ha tütün, 41 ha şəкər çuğunduru, 4000 ha taxıl, 33 ha tərəvəz, 56 ha кartof, 10 ha bostan bitкiləri, 2047 ha isə üzümlüкlərdən, 41 ha meyvə və giləmeyvə bağlarından ibarət olmuşdur. Dənli bitкilərin istehsalı il ərzində orta hesabla 3180 ton, barama istehsalı 80 ton, tütün istehsalı 1700 ton, bostan məhsulları 30 ton, üzüm istehsalı 18000 ton, кartof istehsalı 20 ton təşкil etmişdir (Həsənov T.G. 2002: s.37).

Rayondakı unikal iqlim şəraiti günümüzdə parfümeriya sənayesi üçün zəruri olan ətirli çöl bitkilərinin becərilməsinə imkan yaradır. Lavanda plantasiyalarının salınmasını xüsusilə qeyd etmək olar. Belə ki, bununla yüksək miqdarda lavanda yağı və dünya bazarında gəlirlərin əldə edilməsi realdır.

Füzuli rayonunun iqtisadiyyatında əsas rolu taxılçılıq, heyvandarlıq, bostan – tərəvəz bitkiləri tutur. Əlavə olaraq, buradakı təsərrüfatlarda pambıq, şəkər çuğunduru, üzüm və meyvə də istehsal edilir. İşğaldan əvvəlki illərdə 8 sənaye müəssisinə malik Cəbrayıl rayonu 60 min tondan çox üzüm yetişdirirdi. Bu rayonun əraziləri taxılçılıq və bostan məhsulları üçün olduqca münbitdir. Ənənəvi maldarlıq və qoyunçuluq təsərrüfatlarının yaradılması da rayon iqtisadiyyatına təkan verəcəkdir.

Barama toxumu, konserv, şərab, yağ-pendir, pambıq və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki kimi vacib müəssisələri ilə Ağdam rayonunda inkişaf etmiş təsərrüfatlar mövcud olmuşdur. Əsas istiqamət isə pambıqçılıq, üzümçülük və heyvandarlıq olmuşdur.

Bu sırada, Kəlbəcər rayonunun işğaldan əvvəlki iqtisadi göstəricilərini xüsusilə qeyd etmək zəruridir. Sözügedən rayonda da heyvandarlıq, əkinçilik, üzümçülük və baramaçılıq kimi sahələr yayılsa da, mineral və termal su mənbələrinin bolluğu ilə diqqət çəkən Kəlbəcərdə yerləşən İstisu sanatoriyasında işğal dövrünədək hər il təqribi 50 min nəfər müalicə alırdı.

İşğaldan azad edilmiş bölgələrdə iqtisadi inkişaf potensiallarını müəyyən etmək üçün ilk öncə prioritet sahələri təhlil etmək vacibdir. Bu mənada yaxın gələcəkdə region iqtisadiyyatında müqayisəli rəqabət üstünlüklərinə malik olacaq sahələr nəzərdə tutulur. Aşağıda qeyd edilən şərtlər bu prosesin əhəmiyyətli tərkib hissəsidir:

- Regionun müqayisəli rəqabət üstünlüyünə malik sahələri, ümumilikdə respublikanın potensial sahələri unudulmadan seçilməli, həmçinin bu siyahıya son istehlak mərhələsinə hazır olmayan məhsul və xidmətlər istehsal edən, lakin respublikanın iqtisadi funksiyalarını yerinə yetirilməsində ciddi rol oynayan müəssisələr də salına bilər;

- Regiona rəqabətdə üstünlüyü verəcək müəssisələrin iş fəaliyyəti əsasən yerli insan resurslarından təşkil olunmalıdır;
- Bu tip müəssisələr əhalinin məşğulluğunun artmasına, kifayət qədər yüksək əmək haqqının təklif edildiyi iş yerlərinin açılmasına fokuslanmalıdır. Bu, öz növbəsində ilk olaraq qayıdış-bərpa prosesini daha da sürətləndirəcəkdir.

İqtisadi inkişaf potensialı və hansı sahələrə prioritet olaraq yanaşılacağı ilə bağlı hərtərəfli olaraq əsaslandırılmış tədqiqat aparmaq olduqca mürəkkəbdir. Araşdırma zamanı regionda və dünyada cərəyan edən siyasi və iqtisadi proseslər, habelə işğaldan azad edilmiş rayonlarda yaşayacaq əhalinin mental xüsusiyyətlərinə qədər çoxlu sayda amillərin analizi nəzərdə tutulur. Bu mərhələdə isə həmin rayonların əmək potensialı əsasında iqtisadiyyat üçün qurucu rol oynaya biləcək mümkün sahələrin fərqləndirilməsi aparılmalıdır ki, onlara aşağıdakılar aid edilə bilər:

1.Kənd təsərrüfatı sahəsi;

*Taxılçılıq.* 21-ci əsrin əvvəllərindən dünyanın qlobal ərzaq böhranı ilə üzləşməsi kənd təsərrüfatının sahə strukturunu yenidən nəzərdən keçirməyi vacib hala gətirdi. Azərbaycan ildə 1 mln. ton taxılın idxalına ehtiyac duyur. 2008-ci ildə Qazaxıstan taxıl ixracatını qısa müddət ərzində dayandırdıqda bu sahədə ilk dəfə olaraq ciddi sıxıntılar yaşandı. Son illərdə dünya bazarlarında taxıl məhsulları üzrə yaşanan bahalaşma və tələbin təklifi üstələməsi ilə ortaya çıxan çatışmazlıqlar bu tendensiya ilə qıtlığın carçısıdır. Azərbaycanda əhalinin taxıl məhsullarına olan ehtiyacını daxili istehsal hesabına ödənilməsi üçün bu sahə regionda prioritet istiqamətlərdən biri ola bilər. Regionda üç inzibati rayonun (Ağdam, Cəbrayıl və Füzuli) təbii iqlim şəraiti bu sahənin inkişafı üçün olduqca əlverişlidir. Burada taxıl əkini və istehsalı prosesində köklü ənənələrlə yanaşı, müasir emal təcrübəsi də mövcuddur.

*Atçılıq.* Müasir dövrdə dünyada cəmi bir neçə məşhur minik at cinsi fərqləndirilir. Axaltəkə, ərəb, xalis ingilis atları ilə bərabər, Qarabağ cıdır atları da bu sırada yer alır. Hələ orta əsrlərdə dünyaca məşhurlaşmış Qarabağ atları keçən əsrin əvvəllərinədək hərbi və nəqliyyat məqsədləri ilə təsərrüfatlarda yetişdirilmiş,

hazırda isə əyləncə, eyni zamanda idman cəhətdən hələ də dünyada ən sevilən, alınan cinslər arasında yerini alır. Bu atların yetişdirilməsi sadəcə bir ənənə deyil. İşğala qədərki dövrdə Ağdam rayonu ərazisində sahənin ən uğurlu müəssisələrindən olan atçılıq zavodu fəaliyyət göstərmişdir. Dünya bazarında təmizcinsli cıdır atlarına olan tələbin getdikcə yüksəlməsi və Qarabağ atlarının adından da göründüyü kimi, unikallığı ilə seçilməsi regionda atçılıq təsərrüfatının inkişafına təsir edəcək amillərdəndir.

*Heyvandarlıq*. İşğaldan azad edilmiş rayonlar, xüsusən regionun dağlıq əraziləri qoyunçuluğun inkişaf etdirilməsi üçün yüksək potensiala malikdir. Bu sahədə bölgədə tarixi ənənələrlə yanaşı, müasir tələblərə cavab verən istehsal təcrübəsi də mövcuddur. Hal-hazırda respublikada əhalinin qoyun ətinə olan tələbatı daxili istehsal hesabına ödənilsə də, keyfiyyəti ilə seçilən Qarabağ ətinin həm qonşu, həm də digər inkişaf etmiş ölkə bazarlarına çıxarılması müsbət hadisə olacaqdır.

*Digər kənd təsərrüfatı sahələri*. İşğala qədərki dövrdə sözügedən iqtisadi rayonlarda üzümçülük və pambıqçılıq da xeyli inkişaf etmişdir. Bütün rayonların təbii-iqlim şəraiti yüksək keyfiyyətli üzüm növlərinin becərilməsi, Ağdam və Füzulidə isə pambıq istehsalının dirçəldilməsi üçün imkanlar yaradır (İsmayılov E., Müzəffərli N. 2010: s. 205)

2. Sənaye sahəsi;

*Xalçaçılıq*. Əl ilə toxunmuş Azərbaycan xalçalarına beynəlxalq bazarda yüksək tələbat vardır ki, bunların da ən məşhuru şöhrətini əsrlərlə qorumaqla qədim xalça toxuculuğu ənənələrini yaşadan Qarabağ xalçalarıdır. Yerli əhali məcburi köçkünlük dövründə belə bu ənənələri itirməmiş, yaşada bilmişdir. Bu xalçalar istehsal keyfiyyəti ilə, 10 $sm^2$-ə düşən 50 ilmə sayına görə dünyada ən mükəmməl xalçalardan biri qəbul edilir. Bununla belə, xalçaçılığın özünəməxsus üstünlük və çətinlikləri vardır. Fəal marketinq strategiyası və düzgün reklam siyasəti ilə işğal illərində iran-fars mənşəli brendlər altında satılan Qarabağ xalçalarını beynəlxalq bazarlarda öz tarixi adı ilə yerləşdirmək mümkün olacaqdır. Burada brend menecmentin səviyyəsi sahənin perspektivini təyin edən əsas amillərdən olacaqdır. Xalçaçılıq ixtisaslaşmış fabriklərlə yanaşı, istehsal prosesinin qurulması üçün tələb

olunan şərtlər nəzərə alındıqda, ev şəraitində də təşkil edilə bilər. Yüksək dərəcədə mənfəəti (araşdırmalara görə Qarabağ xalçalarının 1 $m^2$-i 100 manat civarındadır) ilə seçilən bu sənaye sahəsində qiymətin əl əməyinə əsasən təyin edilməsi də müsbət amildir (İsmayılov E., Müzəffərli N., 2010: s.206). Qeyd olunan əl əməyi dəyərləndirilməsi ipin əyrilməsindən, kustar üsullarla alınmış təbii boyalardan istifadəyə qədər bütün mərhələlərə şamil olunur.

*Dəri sənayesi*. İşğaldan azad edilmiş rayonlarda heyvandarlığın sürətli inkişafı gön-dəri sənayesinin inkişaf perspektivlərindən yararlanmağa imkan verəcəkdir. Son dövrdə bu sahə Azərbycanda yüksək templə inkişaf etsə də, daxili tələbatın kiçik bir hissəsini ödəməkdədir. Belə ki, yetərincə mənfəətli sahə olmasına baxmayaraq, dəri, ayaqqabı və dəri məmulatları istehsalının emal sənayesindəki payı təqribən 3% təşkil edir. Bu sənayenin xüsusi çəkisi isə daha da aşağıdır. Ölkədə yerli şirkətlərin istehsal etdiyi dəri məmulatları çox azdır. Ümumi təcrübə ölkədə toplanmış heyvan dərisininin əsasən Türkiyə və digər dövlətlərə xammal olaraq ixrac edilməsi və hazır məhsul ixracı ilə məhdudlaşır. Ancaq bu məhsulların ölkəmizdə, o cümlədən Qarabağ bölgəsində istehsal edilməsi üçün əlverişli imkanlar var. Burada iki ciddi problem qalır. Bu sahə yüksək səviyyədə sututmlu sahədir. Suların çirkabdan təmizlənməsi üçün effektiv olan müasir üsullar tətbiq edilməklə bunu asanlaşdırmaq, təmiz su mənbələrinin çirklənməsinin qarşısını almaq olar. İkinci məsələ isə, işğaldan azad edilmiş rayonlarda dəri məmulatlarının istehsalı üçün müasir təcrübə yoxdur. Bu istehsalın mürəkkəb olmaması və ölkənin digər bölgələrində inkişaf etməsi bu prosesi mümkün edə bilər.

*Tikinti materialları sənayesi*. Həm Qarabağ, həm də Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisi müxtəlif növ tikinti materialları ehtiyatları ilə zəngindir. Ərazidə aparılacaq yenidənqurma və infrastruktur bərpası işləri bu materiallara tələbatı ciddi şəkildə artıracaqdır. Bu sahədə istehsal təcrübəsinin mövcudluğu, inşaat materialları ehtiyatlarının yerli yataqlarının istismara verilməsi, müəssisələrin açılması ölkənin digər şəhər və rayonlarından təmin edilməsindən daha sərfəli və sürətli olacaqdır. Sonrakı mərhələdə isə bu müəssisələr daha geniş miqyasda fəaliyyət göstərə biləcəklər.

*Süd məhsulları sənayesi.* İdxalı tam olaraq əvəzləyə biləcək potensiala malik olması bu sahəni prioritet hala gətirir. Regionda heyvandarlığın geniş inkişafı da ət və süd məhsulları sənayesinin dirçəldilməsinə əlavə təkan olacaqdır. Həm uzunmüddətli, həm də müasir istehsal ənənələrinin mövcudluğu, xarici şirkətlərlə rəqabət halında olan yerli şirkətlərin dövlətə etibarı və bölgədə iş qurmağa hazır olmaları sənayenin bu qolunu sürətlə inkişaf etdirəcəkdir.

*Şərabçılıq sənayesi.* Daha əvvəl qeyd etdiyimiz kimi, işğalaqədərki dövrdə region iqtisadiyyatında üzümçülük mühüm sahə olmuşdur. Post-konflikt zamanı da bu sahənin iqtisadi effektivliyi nəzərə alınaraq kənd təsərrüfatının əsas istiqamətlərindən birinə çevrilərsə, bu, şərabçılığın yüksək tempdə inkişaf etdirilməsi üçün də ciddi potensial təşkil edəcəkdir. Rusiya kimi irihəcmli satış bazarlarına olan coğrafi yaxınlıq bu sahədə üstünlük sayılsa da, beynəlxalq səviyyədə kifayət qədər tanınmamış brendlərlə dünya bazarına çıxmaq olduqca çətin və risklidir.

3. Xidmət sahəsi;

*Turizm.*Vaxtilə ölkə sakinləri üçün turizm mərkəzi olmuş işğaldan azad edilmiş rayonların dağlıq və dağətəyi əraziləri sovet hakimiyyəti zamanında qonşu respublikalardan xeyli turist qəbul etmişdir. Bölgədə müalicə və kulinariya turizmi üçün də lazımi imkanlar vardır. Əlbəttə ki, ilk növbədə daxili turizmin təşkili müvafiq təhlükəsizlik tədbirləri tam olaraq yerinə yetirildikdən sonra inkişaf etdirilə bilər. Beynəlxalq turizmin dirçəlməsi isə nisbətən daha uzun müddət ərzində reallaşacaqdır. Münaqişənin yekun həlli, mükəmməl infrastrukturun varlığı, qeyri-müəyyənliyin aradan qaldırılaraq risklərin minimuma endirilməsi və s. kimi amillər bölgədə turizmin dirçəlməsi üçün əhəmiyyətli amillər sırasındadır.

4. Mədəniyyət sahəsi;

*Musiqi.* Qarabağ tarix boyu Azərbaycan muğamının, unikal xalq musiqisinin mərkəzi olmuşdur. Qədim ənənələri yaşadan yerli xanəndələrin yetişməsi bölgəni Mərkəzi Asiya və Yaxın Şərq mədəniyyətində özünəməxsus yer tutan, musiqi növünün mərkəzinə çevirməyə imkan verir. Musiqi tədrisi üçün beynəlxalq dərəcəli mərkəzlərin açılması, muğam festivallarının keçirilməsi, xanəndələrin xarici

səfərlərinin təşkili və digər bu kimi addımların atılması, ümumilikdə folklor musiqisini iqtisadi amilə çevirə bilər.

İllərdir ki, düşmən tapdağı altında qalan regionda bir-birindən gözəl təbiət abidələri, nadir bitki örtüyü ilə yanaşı müxtəlif heyvan növləri də mövcud olmuşdur. Belə ki, Kiçik Qafqazın dağlıq bölgəsi eyni zamanda ölkənin böyük meşə sahələrindəndir. Ərazidəki meşə sahəsi təxminən 246.7 min hektardır, o cümlədən onlardan 13,197 hektarı qiymətli meşə sahələridir. Respublikamızda xüsusi mühafizə edilən təbiət ərazilərinin sahəsi hazırda 890 min hektara çatdırılıb ki, bunun da 42,997 hektarı regionun payına düşür (Xəlilov M.Y., Məmmədov Q.Ş., 2002: s.56). Belə ki, işgaldan azad olmuş bölgələrdə, zamanında öz zəngin flora və faunası ilə seçilən məşhur dövlət qoruq və yasaqlıqları mövcud olmuşdur. Ekoloji terrora məruz qalan bu ərazilər zaamanla öz təbii strukturuna geri dönəçəkdir.

Təbii su ehtiyatları ilə zəngin olan region respublika sənayesi, o cümlədən kənd təsərrüfatı üçün böyük önəm kəsb edir. “Sərsəng” su anbarı 1976-cı ildə Tərtərçayın üzərində, Ağdərə rayonu ərazisində inşa olunmuşdur.

Ümumi olaraq, 560 milyon m³ sututumuna malik olan su anbarı 125 metrlik bənd hündürlüyü ilə də ölkədə fərqlənir Ağdərə rayonunun tamamilə işgaldan azad ediməsi ölkənin altı rayonunda (Ağcabədi, Goranboy, Tərtər, Bərdə, Ağdam və Yevlax) təqribən 100 hektarlıq əkin sahəsini suvarma suyu ilə təmin etməyə imkan yaratmış olacaqdır. “Sərsəng” su anbarından başqa regiondakı ümumi sututumu 80 mln. m³-ə çatan başqa su anbarlarının mövcudluğunu da qeyd etmək lazımdır ki, onların da əlavə olaraq, 15 min hektar sahəni suvarma potensialı vardır. (İmanov F.Ə., Ələkbərov A.B., 2017: s. 73).

Bir çox sahələr kimi, “Sərsəng” SES hal-hazırda istifadəyə yararlı olmadığından, demək olar ki, bütün müəssisələr kimi təmir-bərpa işlərinə ehtiyacı var. Bu işlər yekunlaşdıqdan sonra isə istehsal gücü olduqca artırıla və yaxın rayonların elektrik enerjisi ilə təchizatında ciddi paya sahib ola bilər.

Cəbrayıl və Zəngilan rayonlarındakı “Xudafərin” su anbarı 75 min hektar əkin ərazilərinin suvarılması və mövcud suvarma sisteminin işlək hala gətirilməsi deməkdir. Anbarın ümumi həcmi təxmini hesablamalara əsasən

1,6 mld. m3–dir. Eyni zamanda bölgədə 11 yeraltı içməli su mənbəyinin olması ehtimal olunur. Başqa sözlə, bu, 1 milyon 968 min m3/gün içməli su təchizatının olması deməkdir. Azərbaycan mineral su ehtiyatlarının təxminən 39.6%-i Qarabağ ərazisinin payına düşür. Burada 7805 $m^3$/gün mineral su təchizatına malik, müalicə əhəmiyyəti olan 120-yə qədər müxtəlif tərkibli mineral su yataqları mövcuddur. (İmanov F.Ə., Ələkbərov A.B., 2017: s. 73).

Bu sırada, Kəlbəcərdəki Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Laçındakı İlıqsu, Minkənd, Şuşadakı Turşsu, Sırlan və digər mineral sular diqqəti xüsusilə cəlb edir. Kəlbəcər ərazisindəki İstisu mineral suları əlverişli qaz və kimyəvi tərkibi, yüksək temperatur, böyük təbii ehtiyatlar ilə fərqlənir. İstisu bulağı üzərində, ötən əsrin 80-ci illərində böyük kurort və sutka ərzində 800 min litr su istehsal edən mineral su doldurma zavodu tikilmişdir. Turşsu mineral bulağı Şuşa şəhəri yaxınlığında yerləşir, kəmər vasitəsi ilə Şuşa şəhərinə su verilirdi. Turşsu eyni zamanda müxtəlif daxili xəstəliklər müalicəsində istifadə olunur.

Qeyd olunan bütün kənd təsərrüfatı, təbii sərvətlər və digər iqtisadi inkişaf sahələri ilə yanaşı, region ciddi rekreasiya ehtiyatlarına (istirahət) malikdir.

Kəlbəcər rayonundakı İstisu kurortu, Böyük və Kiçik Alagöllər, habelə, Tərtər, Həkəri çayları hidroturizm üçün əlverişli imkanlardandır. Qədim Alban Kilsəsi, Ağ Oğlan Məbədi, Gövhər Ağa Məscidi kimi maddi-mənəvi irsi özündə daşıyan ibadət yerlərinin çoxluğu həm bölgədə xalqımızın tolerantlıq ənənələrini mənimsədiyinin bir sübutudur, həm də turizmin müəyyən sahəsinin inkişafına təkan verir. İşğaldan ən çox ziyan görən tarixi memarlıq abidələrinə də bərpa edilmədən, dağıdılmış vəziyyətində daxili və xarici turların təşkili Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz rol oynayacaq, sonrakı mərhələdə vacib turizm obyektləri kimi fəaliyyət göstərməsinə yol açacaqdır. Yarma dərələr, sürüşmələr, sönmüş vulkan konusları, karbonatlı süxurlar, Beş Dəli, Tağlar, Azıx mağaraları və digər relyef nümunələri geoturizm üçün olduqca əlverişlidir (Mehbalıyev M.M., 2009: s. 41). Ən qədim insan məskənlərindən olan Azıx mağarası elmi, maddi-mənəvi və tarixi məqsədlər üçün böyük önəm kəsb edir. İşğal dönəmində ermənilər əcnəbi tədqiqatçı da cəlb etməklə beynəlxalq qanunlara zidd arxeoloji qazıntılar aparmışlar. Yaşı

milyon ildən çox olan bu mağara düşərgəsi insanlıq tarixinin ən qədim mərhələlərini ardıcıllıqla özündə əks etdirən bir abidədir. Arxeologiya və tarix elmində mühim əhəmiyyətə malik olan Azıx mağarasında ermənilər qanunsuz qazıntılar apararaq sadəcə Azərbaycana deyil, dünya maddi mədəniyyətinə böyük zərbə vurmuşlar .

Respublikada kənd təsərrüfatının ümumi məhsulunun cari qiymətlərlə dəyəri 2019-cu ildə 7836.7 milyon manat təşkil etmişdir. Bunun da 52.13 faizi heyvandarlıq, 47.87 faizi isə bitkiçilik məhsullarının payına düşmüşdür (KTN illik hesabat, 2020). Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təsərrüfat fəaliyyətinin başlanması bu göstəricilərin ilkin olaraq azı 8-10 faiz artmasına gətirib çıxara bilər.

2020-ci ildə ölkəmizin 1 milyon hektarlıq əkin sahələrində taxıl əkilmişdir. Bölgə ərazisindəki kənd təsərrüfatı təyinatlı torpaqların dövriyyəyə qaytarılması ilə bu rəqəmin 10%-ə qədər artacağı proqnozlaşdırılır. Əkin sahələrinin suvarılmasını daha da əlverişli edəcək amillərdən biri də gursulu dağ çaylarının mövcudluğudur. Bu çaylar üzərində müasir standartlara cavab verən balıqçılıq təsərrüfatlarının yaradılması potensialı da ölkənin ərzaq təhlükəsizliyinə əlavə dəstək ola bilər. Beləliklə, Azərbaycanın Ermənistan üzərində əldə etdiyi hərbi-siyasi qələbə iqtisadiyyatının, demək olar ki, hər bir sektorunnun inkişafına öz müsbət töhfəsini verəcəkdir.

## III FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİYYATININ YÜKSƏLİŞİ VƏ YENİ İQTİSADİ GÜCLƏRİN YARADILMASININ ƏSAS PRİORİTET İSTİQAMƏTLƏRİ

## 3.1. İşğaldan azad olunmuş ərazilərdə iqtisadi yüksəlişin təmin olunmasında dövlət siyasəti

Son illər ərzində, Azərbaycan regionlarının inkişafı, yoxsulluğun azaldılması, ərzaq təhlükəsizliyi, o cümlədən, iqtisadiyyatın gücləndirilməsi və sosial həyatın yaxşılaşdırılması üçün bir çox irimiqyaslı və əhatəli dövlət proqramları uğurla həyata keçirilmişdir. Onların bəziləri hələ də həyata keçirilir. Həyata keçirilən bu və ya digər tədbirlər sayəsində ölkəmizdə uğurlu sosial-iqtisadi nailiyyətlər əldə edilmiş, Azərbaycanda güclü dövlət və yüksək rifah cəmiyyətinin qurulması üçün etibarlı zəmin yaradılmışdır. İndi əsas vəzifə ölkənin sürətli və uzunmüddətli dayanıqlı inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyü arasında uğurlu əlaqələri daha da gücləndirmək, biznesə uyğun idarəçiliyi genişləndirmək, yerli bazarlara çıxış imkanlarını artırmaq və iqtisadi resursların bu sahəyə yönəldilməsini təmin etməkdir.

Bu məqsədlərə nail olmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 fevral, 2021-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncamda qarşıdakı onillikdə ölkənin sosial-iqtisadi inkişafının beş Milli Prioritetinin həyata keçirilməsi nəzərdə tutulub. Bu prioritetlərə daim inkişafda olan rəqabətqabiliyyətli dinamik iqtisadiyyat, inklüziv və sosial cəhətdən ədalətli cəmiyyət, rəqabətqabiliyyətli insan kapitalı və müasir innovasiya məkanı, işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış", təmiz ətraf mühit və yaşıl inkişaf ölkəsinə çevrilmək daxildir. Qeyd etmək lazımdır ki, milli prioritetlər bir-biri ilə sıx qarşılıqlı əlaqəyə malikdir və bir-birini tamamlayır.

Hazırda, Azərbaycanda dövlətin davamlı inkişafını təmin etmək üçün bütün zəruri amillər var və bu prioritetlərin müəyyənləşdirilməsi günün tələbidir. Çünki dünyada gedən siyasi və iqtisadi proseslər iqtisadiyyatın idarə edilməsinin təkmilləşdirilməsi vəzifəsini qoyur. Odur ki, sənəddə göstərildiyi kimi, qlobal sosial-iqtisadi reallıqlar, eyni zamanda yeni müasir inkişaf mərhələsində qeyd olunan hədəflər ölkənin uzunmüddətli inkişaf vektorunu, sosial-iqtisadi inkişafın önəmli istiqamətlərinin müəyyənləşdirilməsini tələb edir. Milli Prioritetlər Proqramı dövlətin inkişafına və cəmiyyətin rifahına xidmət edən, eyni zamanda milli

maraqların və strateji planlaşdırmanın vəhdətinə xidmət edən təşəbbüsdür. Risklərin azaldılmasına, sənaye sahələrinin inkişafının sürətləndirilməsinə, sektorlar üzrə sahə prioritetlərinin müəyyənləşdirilməsinə xidmət edən strateji idarəetmə üsulu Azərbaycanın gələcək inkişaf istiqamətini də müəyyən edir (Səmədzadə Z., 2020: s. 6).

Qarabağ bölgəsi sadəcə Azərbaycanın deyil, həmçinin dünyada özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və o cümlədən musiqi mədəniyyəti ilə olduqca zəngindir. 2021-ci il, Şuşa şəhərində keçirilmiş dövlət səviyyəsindəki "Xarıbülbül Beynəlxalq Musiqi Festivalı" məhz bunun ilkin nümunəsidir.

Azərbaycan Respublikası Prezidentinin məlum sərəncamına əsasən, 2022-ci il Azərbaycanda "Şuşa ili" elan edilmişdir. Sərəncama əsasasən, ən yaxın zamanda Şuşanın baş planının hazırlanması, M.P.Vaqifin büstünün və muzey məqbərə kompleksinin bərpası, Ü.Hacıbəylinin heykəlinin açılışı, dini, tarixi memarlıq abidələrinin bərpası və s. görüləcək kompleks tədbirlərə aiddir.

Şuşa şəhəri, eyni zamanda 2022-ci ildə Azərbaycan Respublikasının mədəniyyət paytaxtı elan edilmişdir. TÜRKSOY-a üzv olan dövlətlərin Mədəniyyət Nazirlərinin Türkiyənin Bursa şəhərində keçiririlən iclasında isə Şuşa şəhəri, 2023-cü ildə isə Türk dünyasının mədəniyyət paytaxtı elan olunmuşdur..

2022-ci ilin aprelində, Şuşa şəhərində Dünya Azərbaycanlılarının 5-ci Qurultayının keçirilməsi planlaşdırılmışdır. Mötəbər və əlamətdar tədbirin tarixi zəfərimizin rəmzi olan Şuşa şəhərində keçirilməsi çox böyük ictimai, siyasi, mənəvi əhəmiyyətə malik olan əlamətdar tarixi hadisə, unudulmayacaq böyük tədbirdir.

Ulu Öndər Heydər Əliyevin də zamanında söylədiyi kimi: "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur!".

Bu sözlər, Şuşanın Azərbaycan üçün nə qədər xüsusi, önəmli yeri olduğunu bir daha təsdiqləmiş olur. Azərbaycanın bir parçası olan bu qədim şəhər ən qısa zamanda, öz tarixi şöhrətini ən yüksək səviyyədə bərpa edəcək, xalqın milli mədəniyyət məbədi kimi regionun və dünyanın ən möhtəşəm mədəniyyət mərkəzlərindən birinə çevriləcəkdir.

Dövlət başçısı işğaldan azad edilmiş rayonların faydalı qazıntılarla zənginliyini, kənd təsərrüfatının və turizmin inkişafı üçün yüksək potensialı, o cümlədən iqtisadiyyatın digər sahələrinin inkişafı üçün əlverişli şəraiti nəzərə alaraq, infrastruktur, tikinti, abadlıq-quruculuq işlərinin aparılması ilə bağlı aidiyyatı qurumlara tapşırıqlar vermişdir. Bölgənin inkişafına dəstək üçün hazırlıqlar görülür, yeni layihələr hazırlanır. Hazırda Füzuli-Şuşa yolunun tikintisi davam etdirilir. Yeni Füzuli-Şuşa avtomobil yolu Ermənistanla dövlət sərhədinin Hacıqabul-Bəhrəmtəpə-Mincivan hissəsindən başlayaraq Füzuli, Xocavənd və Xocalının işğaldan azad edilmiş kəndlərindən keçir. Avtomobil yolu Füzuli və Şuşa da daxil olmaqla, rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edəcək.

Prezident İlham Əliyevin iştirakı ilə Laçın rayonunda artıq "Güləbird" SES istifadəyə verilib. Güləbird Su Elektrik Stansiyasının istifadəyə verilməsi önəmli və tarixi bir hadisədir. Bu, işğaldan azad olnmuş rayonlarda gercəkləşən ilk infrastruktur layihələrindəndir. Stansiya yeddi minə yaxın sakinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Laçın rayonunun cənub hissəsini, Qubadlı rayonunun Xanlıq kəndini, eyni zamanda ərazidə yerləşən digər infrastruktur layihələrini enerji ilə təmin edəcəkdir

Artıq Horadiz-Ağbənd dəmir yolunun təməli qoyulub. Əsası dövlətimizin başçısı tərəfindən qoyulmuş 100 kilometrlik Horadiz-Ağbənd dəmir yolu xətti böyük strateji əhəmiyyət daşıyır. Bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının işğaldan azad edilmiş torpaqlara gediş-gəlişini asanlaşdıracaq və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa dəmir yolu əlaqəsini təmin edəcəkdir (Musayev A., 2021: s.13).

2020-ci il, noyabrın 10-da imzalanan məlum üçtərəfli birgə bəyannamədə Naxçıvan dəhlizinin yaradılması ilə əlaqəli xüsusi müddəa qeyd olunmuşdur. Naxçıvana quru dəhlizinin açılması mühüm tarixi nailiyyət hesab oluna bilər. Azərbaycan Respublikasının təkidli tələbi ilə ölkənin qərb rayonları ilə Naxçıvan MR arasında əvvəllər nəzərdə tutulmayan nəqliyyat əlaqəsinin yaradılması planlaşdırılır. Bununla da Naxçıvan Muxtar Respublikası blokadadan çıxmış olacaq, eyni zamanda regionda yeni nəqliyyat arteriyası yaranacaqdır. Bunun nəticəsində,

Azərbaycan onun tərkib hissəsi olan Naxçıvan MR-la, eləcə də qardaş Türkiyə Cümhuririyyəti ilə ilə quru yolunu bərpa edəcəkdir. Bu yeni nəqliyyat dəhlizinin yaradılması regionda mühüm hadisədir və region ölkələri arasında əməkdaşlığı daha da gücləndirmiş olacaqdır.

Dəmir yollarına gəlincə, artıq bu mənada ilkin layihələrin icrasına başlanılmışdır. Prezident İlham Əliyevin "Bərdə-Ağdam dəmir yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" 2020-ci il, 24 noyabr tarixli sərəncamı ilə uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yolunun layihələndirilməsi və tikintisi üçün ilkin olaraq 5 milyon manat vəsait ayrılmışdır.

2021-ci il, dövlət büdcəsindən ayrılan əsas xərclərdən biri də işğaldan azad edilmiş ərazilərin bərpası, ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi, pandemiyanın mənfi nəticələrinin azaldılması ilə bağlı tədbirlər olmuşdur.

İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"ın yüksək səviyyədə təmin olunması üçün şəhər və qəsəbələrin abadlaşdırılması, restruktruzasiyası, bu bölgədə müasir infrastrukturun, o cümlədən elektrik enerjisi, su, təbii qaz, rabitə, yol, təhsil, səhiyyə, mənzil-kommunal təsərrüfatının yaradılması, mədəniyyət və tarix abidələrinin bərpa edilməsi və digər məqsədlər üçün 2021-ci ilədək dövlət büdcəsindən 2,2 milyard manat ayrılacaqdır (Quliyeva A., 2020: s.36).

Dövlət büdcəsi xərclərinin sosialyönümlülüyünün təmin edilməsi, özünüməşğulluq proqramının maliyyə təminatının yaradılması işinin davam etdirilməsi büdcə xərclərinin əsas istiqamətlərindən biri olacaqdır. İşğaldan azad edilmiş ərazilərə qayıdacaq Azərbaycan vətəndaşlarının məşğulluğunun təmin edilməsi əsas diqqət mərkəzindədir. Yaxın bir neçə ildə təqribən 16 min ailənin özünüməşğulluğu təmin olunması planlaşdırılır. DOST Agentliyinin fəaliyyəti, sosial dəstək tədbirləri, şəhid ailələrinə və veteranlara qayğı özünüməşğulluq layihəsinə cəlb olunan ailələrin sayını xeyli artırmışdır. Yaxın gələcəkdəki üç illik hədəfdə 10 min nəfərin peşə təhsili alması nəzərdə tutulur. Bu il 3000 nəfərin peşə hazırlığı və 1000 sertifikat verilməsi nəzərdə tutulur (Piriyev Ə., 2020: s.198).

Belə ki, bərpa məsələlərinin bütün aspektlərini, ondan irəli gələn bir çox spesifik proqramları və ətraflı fəaliyyət planlarını hərtərəfli əks etdirən "Böyük

Qayıdış Proqramı" məqsədyönlü şəkildə hazırlanır və həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərinin gedişatı göstərir ki, münaqişədən sonrakı dövrdə bölgənin bərpasına dair "Böyük Qayıdış" proqramının birinci hissəsi təxirəsalınmaz tədbirləri əhatə edir. Orada normal yaşayış üçün infrastruktur yenidən qurulmalı və təmin edilməlidir. Bunlara minaların təmizlənməsi, infrasturukturun bərpası və inkişafı, yeni yolların tikintisi, su təchizatı, elektrik, təbii qaz və istilik sistemləri, təhsil, səhiyyə, mədəniyyət və digər sosial obyektlər, tikinti və s. kimi məsələlərin həll olunması aiddir. Azad olunmuş torpaqlarda bu istiqamətlər üzrə müasir və səmərəli həyatın bərpası mexanizminin işlənib hazırlanması və həyata keçirilməsi istiqamətində işlər davam etdirilir.

Dövlətin qarşıya qoyduğu vəzifələrdən biri də azad edilmiş torpaqların yaşıl enerji və iqtisadiyyat zonasına çevrilməsidir. Qarabağ bölgəsində yaşıl enerji üçün münbit imkanlar var. Bu ərazilərdə həm külək, həm də günəş enerjisi potensialı böyükdür. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərin çayları iqtisadi və ekoloji cəhətdən təmiz su elektrik stansiyalarının tikintisi üçün əlverişlidir.

Günümüzdə işğaldan azad edilmiş ərazilərin baş planı hazırlanır. Şuşa, Ağdam və digər şəhərlərin timsalında "Ağıllı Şəhər" layihəsinin həyata keçirilməsi istiqamətində işlər aparılır. İlk "Ağıllı Kənd" layihəsi isə Zəngilan rayonunda həyata keçirilir və prosesin böyük bir qismi artıq yekunlaşmaqdadır.

"Böyük Qayıdış" proqramının ikinci hissəsində, işğaldan azad edilmiş ərazilərin özünəməxsus xüsusiyyətləri və potensialı nəzərə alınmaqla hazırlanmış alt proqramlar kompleksi üzərində işlənilir. Buraya işğaldan azad edilmiş ərazilərin iqtisadi, coğrafi və tarixi inkişafı, təbii şəraiti və potensialı, təbii sərvətlərinin miqyası və müxtəlifliyi, Ermənistan tərəfindən talan edilməsinin səviyyəsi, əhali sayının proqnozu, müqayisəli üstünlükləri və regional prioritetlər daxildir. Bütün bu əsas amillər nəzərə alınmaqla, regionda yeni inkişaf mərhələsi dövlət və özəl sektor, beynəlxalq təşkilatlar ilə əməkdaşlığın səmərəli vəhdəti, birgə xarici investisiya fəaliyyəti əsasında həyata keçiriləcək (Şəfiyev Ü., 2020: s.226).

Bir sözlə, Qarabağ və ətraf rayonların kompleks şəkildə bərpası və yenidənqurulması qarşıda duran ən mühüm məsələlərdən biridir. Artıq bununla bağlı yeni dövlət proqramları hazırlanır və mövcud tədbirlər uğurla həyata keçirilir.

## 3.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi inkişafı bu regionda məskunlaşmanın əsas amili kimi

Yaşayış sistemini bərpa etmək üçün bir sıra yaşayış məntəqələri arasından bütün regionun dirçəldilməsi üçün lokomotiv rolunu oynaya biləcək struktur qrupu seçilməlidir. Bu, köhnə yaşayış məntəqələrinin bərpasına müəyyən dərəcədə tənqidi yanaşma tələb edir. Birincisi, şəhərsalma nöqteyi-nəzərindən münaqişədən sonrakı ərazilərdəki bütün yaşayış məntəqələrini əvvəlki vəziyyətinə qaytarmaq mümkün deyil. İkincisi, bəzi mövcud yaşayış məntəqələrinin əhəmiyyətli dərəcədə genişləndirilməsi və bəzi hallarda tamamilə yeni qəsəbələrin salınması istisna edilməməlidir.

Münaqişədən sonrakı reabilitasiyaya, onun ən səmərəli şəkildə aparılması nöqteyi-nəzərindən yanaşdıqda bərpa ediləcək ərazilərin (o cümlədən yaşayış məntəqələrinin) ardıcıllığının düzgün müəyyən edilməsi son dərəcə vacibdir. Konseptual nöqteyi-nəzərdən bu problemin həlli yolu təkcə ətraf mühitə dəymiş ziyanın miqyasından deyil, həm də bərpa prosesinə ayrılan vaxtdan və resurslardan (əsasən dövlətin maliyyə imkanlarından) asılıdır. Vaxtın və resursların olmaması bütün hallarda münaqişədən sonrakı reabilitasiya üçün qaçılmaz şərtləndirici amillər rolunu oynayır, yəni müəyyən mənada onun əldə edilə bilən (praktikada) və ya icazə verilən (proqramlaşdırmada) hədlərini müəyyən edir.

İşğaldan azad edilmiş ərazilərdə bəzi istisnalarla bütün infrastruktur, tarix və mədəniyyət abidələri, məscidlər tamamilə dağıdılıb, təbii sərvətlər istismar edilib, ekoloji terror həyata keçirilib. Sözügedən əraziləri erməni xislətinin, vəhşiliyinin əsl mahiyyətini göstərən açıq muzey də adlandırmaq olar. Belə bir şəraitdə bölgənin dirçəldilməsi, orada bərpa işlərinin aparılması, əhalinin gələcəkdə dayanıqlı məskunlaşmasının təmin edilməsi çox vacibdir. Bununla belə, məcburi köçkünlərin qayıdışı və məskunlaşmaların həyata keçirilməsi böyük ölçüdə bir sıra həlledici

məsələlərdən asılıdır. Azad edilmiş ərazilərdə davamlı məskunlaşma və dirçəldilmə yolunda bir sıra təkliflər mövcuddur: (Həsənov A., 2020: s. 217).

- azad edilmiş əraziyə qayıdacaq məcburi köçkünlərin əldə etdikləri müavinətlərin müvəqqəti saxlanması;
- məcburi köçkünlərin geri qayıtmasına mane olan səbəbləri aydın şəkildə müəyyən etmək və müvafiq tədbirlər planı hazırlamaq;
- məcburi köçkünlərlə sosial iş aparmaq: məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıtmasının vacibliyi və bu qayıdışın təhlükəsizliyi, mənəvi, psixoloji və iqtisadi aspektləri ilə bağlı təbliğat aparmaq;
- işğaldan azad edilmiş ərazilərə qayıdan əhalinin təkcə məcburi köçkünlərlə məhdudlaşdırılmaması;
- bölgədə məskunlaşmaq istəyən və məcburi köçkün olmayan Azərbaycan Respublikası vətəndaşları üçün məcburi köçkün statusundan əldə edilən güzəştlər istisna olmaqla, digər imkanlar yaradılması;
- azad edilmiş ərazilərə qayıdan əhalinin mənzilə olan tələbatını ödəmək;
- iş yerlərinin yaradılması, məşğulluğun təmin edilməsi;
- qayıdan əhali arasında sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün güzəştli kreditlər verilməsi və həmin sahibkarların müəyyən müddətə vergilərdən azad edilməsi;
- məskunlaşmanın səmərəliliyini artırmaq məqsədilə bu ərazilərdə ictimai işlərdə çalışan işçilərə əlavə köməklik göstərilməsi;
- universitet, texnikum və kolleclərin açılması;
- teatr və mədəniyyət klublarının açılması;
- idman, sağlamlıq və turizm mərkəzlərinin açılması;
-əhalinin məskunlaşma coğrafiyasına uyğun ictimai iaşə obyektlərinin, məscidlərin tikintisi və ya bərpası;
- Udi icmasının işğaldan azad edilmiş ərazilərdə yerləşən köhnə alban kilsələrinə müntəzəm səfərlərini təşkil etmək və dini ayinləri yerinə yetirmək;

- bölgədə digər məcburi köçkünlərin və yaşamaq istəyənlərin məşğulluğunun təmin edilməsi üçün işğaldan azad edilmiş ərazilərdə kiçik sahibkarlıq və kənd təsərrüfatı kimi fəaliyyətlərə dövlət dəstəyi;
- işğaldan azad edilmiş hər bir rayonun potensialına uyğun olaraq kənd təsərrüfatı sahələrinin inkişafı;
- işğaldan azad edilmiş ərazilərdə alternativ enerji potensialının düzgün qiymətləndirilməsi və bu mənbələrdən səmərəli istifadənin təşkili;
- Kəlbəcər və Laçın rayonlarında müalicəvi sanatoriyaların tikintisini və ya bərpasını həyata keçirmək;
- Laçın rayonundakı dünya şöhrətli Qırmızı Palıdın və Zəngilan rayonundakı məşhur çinarların hazırkı vəziyyətini əks etdirən Açıq Təbiət Muzeyinin yaradılması;
- işğaldan azad edilmiş hər bir rayonun ərazisində tikinti-bərpa işləri zamanı erməni vandalizmini əks etdirən kiçik ərazinin qorunub saxlanılması və onun Açıq Muzeyə çevrilməsi;
- gələcəkdə Xocalıda "Xocalı Soyqırım Abidəsi" nin ucaldılması;
- təhlükəsizlik problemləri həll edildikdən sonra xarici ölkələrdən Qarabağa turist səfərlərinin təşkili.

İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işləri dövlət büdcəsindən ayrılmış vəsaitlərdən əlavə, müstəqil mənbələrdən cəlb edilən vəsaitlər hesabına da həyata keçirilir. Məsələn, "Qarabağ Dirçəliş Fondu" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il, 4 yanvar tarixli Fərmanı ilə işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpasına dəstək, o cümlədən bu ərazilərdə normal məskunlaşma və təhlükəsizliyin təmin edilməsi, səmərəli iqtisadi fəaliyyətə və yüksək rifah halına kömək etmək məqsədilə yaradılmışdır. Bu fond publik hüquqi şəxs olaraq işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən digər tədbirlərlə yanaşı, sosial-iqtisadi fəaliyyətə də maliyyə dəstəyi göstərməkdədir.

Xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri də dövlət-özəl sektor münasibətlərinin qurulmasıdır. İqtisadi artım,qabaqcıl və effektiv özəl təşəbbüslərə əsaslanmalı, dövlət-özəl tərəfdaşlıq gücləndirilməlidir. Belə ki, dövlət başçısının tapşırığına əsasən, hər bir rayonun təbii ehtiyatları, iqtisadiyyatının ənənəvi sahələri,

nəqliyyat qovşaqları diqqətə alınmaqla müvafiq iqtisadi rayonun profili və ixtisaslaşması planlaşdırılır. Dövlət vəsaitlərinə qənaət və investisiyaların səmərəliliyinin artırılması məqsədilə müxtəlif sahələrdə dövlət-özəl tərəfdaşlığından istifadə edilməsi, xüsusi güzəştli iqtisadi rejimin tətbiqi nəzərdə tutulur.

Bu istiqamətdə vacib məsələlərdən biri də ictimai resursların optimal şəbəkəsinin yaradılmasıdır. Çoxlu sayda qazpaylayıcı qurğuların yerləşdirilməsi və onların harada və hansı şəbəkədə quraşdırılacağının araşdırılması xüsusi əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilər minalardan təmizləndikdən sonra ilk növbədə yerli mülki idarəetmə orqanlarının əməkdaşları, o cümlədən yeni yaradılmış inzibati rayon rəhbərlikləri, dövlət güc strukturlarının yerli idarələrinin əməkdaşları bölgədə fəaliyyətlərini möhkəmləndirməlidirlər. Çünki, sözügedən qurumlar sonradan həmin rayonlarda həyata keçiriləcək praktiki bərpa işlərinin təşkilinə yaxından nəzarət etməlidirlər.

Araşdırmalar sübut edir ki, bütün kateqoriyadan olan ölkələrin sosial-iqtisadi inkişafında KOB-lar əhəmiyyətli paya malikdir. Kiçik və orta müəssisələr ÜDM-in artırılmasına və işsizlik səviyyəsinin azaldılmasına yardım etdiyinə görə xüsusilə sosial mahiyyət kəsb edir (Wozniak M., Duda J., Gąsior A., & Bernat T., 2019).

Bu baxımdan, sənayenin aparıcı sahələrində, o cümlədən emal, istehsal və xidmət sektorlarında, həmçinin təhsil sahəsində kiçik və orta sahibkarlıq fəaliyyətinin sayı artır və potensialı güclənir. Belə ki, bütün üstün cəhətləri və sosial-iqtisadi inkişafın təmin olunması baxımdan səmərəli alət olması, sahibkarlığın bu seqmentinin faydalarından, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsində və gələcək sosial-iqtisadi inkişafında istifadə edilməsini zərurətə çevirir. Buna baxımdan da sözügedən sahəyə dövlət dəstəyinin rolu önəmlidir.

Eyni zamanda, iqtisadiyyatın yeni formaları bazarda rəqabətqabiliyyətli məhsulun seçimindən tutmuş, iqtisadi və peşəkar azadlığın təmin edilməsinə, yüksək beynəlxalq texnologiyalara yiyələnməyə, mühasibat uçotu, büdcə tərtibi, vergi sistemləri ilə işləmə, sığorta, bank, mümkün investisiya layihələri, marketinq xidmətləri tələb edəcəkdir. Müəssisə və təşkilatlar sosial imici yüksəltmək üçün

çoxlu iş öyrənməli və tətbiq etməlidirlər. Bunun üçün bazar münasibətlərinin atributlarını öyrədən təhsil və məsləhət sisteminin formalaşmış təcrübəsindən istifadə edilməlidir. Mövcud resurslardan aşağıdakı istiqamətlərdə istifadəyə diqqət yetirilməsi, yerli sahibkarlığın formalaşması və inkişafına şərait yarada bilər.

**Torpaq ehtiyatlarından səmərəli istifadə sahəsində:** Torpaq ehtiyatları inventarlaşdırılmalı, onların kəmiyyət və keyfiyyət göstəriciləri dəqiqləşdirilməli, çirklənmiş və deqradasiyaya uğramış torpaqlar müəyyən edilməli, müvafiq layihələr hazırlanmalıdır. Qeyd etmək lazımdır ki, torpaqlardan düzgün istifadə onların eroziya və şoranlaşmasına təsir edən antropogen amillərin nəzərə alınmasından asılıdır. Nəzərə almaq lazımdır ki, eroziya və ekoloji amillərin qiymətləndirilməsi torpaqdan düzgün istifadə etməyə imkan verir. Əhalinin artması ilə əlaqədar olaraq qeyri-kənd təsərrüfatı obyektləri və fərdi tikililər üçün torpaq sahələrinin ayrılması məhdudlaşdırılmalı, buna ciddi diqqət yetirilməlidir.

**Bitkiçilik sahəsində:** Torpaqların təmizlənməsi, münbitliyin bərpası, seleksiya işləri, dağ və dağlıq torpaqların becərilməyə cəlb edilməsi, məhsul istehsalına və emalına adekvat investisiya qoyuluşunun təmin edilməsi, aqrokimyəvi tədbirlərin tətbiqi, əkin dövriyyəsi sistemi, məhsulun strukturunun optimal müəyyənləşdirilməsi, avadanlıq, təchizat və mexanikləşdirmə, kimyəviləşdirmə, anbarların, laboratoriyaların təchizatı həll edilməlidir. Sahənin yüksək ixtisaslı kadrlarla və müasir istehsalla elmi təminatı, qabaqcıl təcrübənin tətbiqi nəzərə alınmalıdır. Rayonlarda toxumçuluq müfəttişlikləri yaradılmalıdır.

**Heyvandarlıq sahəsində:** Təsərrüfat avadanlığı, müasir fermalar, xüsusi nəqliyyat vasitələrinin təminatı, regionlarda heyvanların cinsi nəzərə alınmaqla quşçuluq fabriklərinin yaradılması, heyvandarlıq məhsullarının istehsalı, emalı, idxalı müasir standartlara uyğunlaşdırılmalıdır, baytarlıq nəzarəti təmin edilməlidir. Heyvandarlığın inkişafı üçün yüksək keyfiyyətli yem bazası yaradılmalıdır. 1996-cı ildə MDB məkanında ilk dəfə olaraq, Azərbaycanda uğurlu torpaq islahatı aparılmışdır. Bu təcrübə hal-hazırda azad edilmiş ərazilərdə aqrar islahatlar üçün konseptual çərçivə rolunu oynayacaqdır. Həmin islahat zamanı işğalda olan torpaqların dəqiq inventarlaşdırılması aparılmadığından bölgənin müasir

informasiya texnologiyalarına əsaslanan elektron uçot sisteminin yaradılması zərurəti yaranmışdır. Torpaqların şəxsi mülkiyyətə verilməsi zamanı təsirli tədbirlərin görülməsini təmin etmək üçün keçmiş təcrübələrə əsaslanaraq azad edilmiş ərazilərdə mexanizmlər tətbiq oluna bilər. Nəzərə almaq olar ki, kooperativlərdə və icma əsaslı təsərrüfatlarda üzvlərdən biri öz hissəsini sata bilər və bu halda digər üzvlərin üzvlərin həmin hissələri almaqda üstünlük hüququ vardır. Üzvlərdən biri pay almadıqda, kənar şəxs icma üzvü olur. Yəni, heç bir halda torpağın bölünməsinə icazə verilmir.

Yuxarıda deyilənləri nəzərə alaraq, işğaldan azad edilmiş ərazilərdə sosial bərabərliklə yanaşı iqtisadi səmərəliliyi artıran aqrar islahatların bir neçə variantına baxmaq olar. Bu mənada aşağıdakı islahat modellərini təklif etmək olar.

**Cədvəl 9: İşğaldan azad edilmiş ərazilərdə torpaq islahatı üçün mümkün həll yolları**

| | *Təfsilatı* | *Müsbət Tərəfləri* | *Mənfi Tərəfləri* |
|---|---|---|---|
| **Mövcud Torpaq İslahatı Təcrübəsi** | Əkin yerləri keyfiyyətə nəzərən bütün ev təsərrüfatları arasında bölünür. | Təcrübə olduğu üçün islahatı rahatlıqla reallaşdırmaq olar. | Əkin sahələrinin kiçik hissələrə parçalanması mümkündür. |
| **İcma Əsaslı Ailə-Kəndli Təsərrüfatları** | Əhaliyə adam sayına görə torpaq payları müəyyənləşdirilir, ailə-kəndli qruplarına verilir. | Torpaqlar parçalanmadan iri təsərrüfatlar yaradılır. | Lazımi təcrübə olmadığından, risk mövcuddur. |
| **Kooperativlər** | Adambaşına uyğun paylanan torpaqlar əsasında kooperativlər yaradılır. | İri təsərrüfat subyektləri formalaşır. | İdarə edilməsi mürəkkəb prosedur tələb edir. |
| **Bələdiyyə İştirakı ilə** | Əkin əraziləri bələdiyyələrin mülkiyyətində qalır, beş ildən sonra ərazidə yaşayan icmalara paylanır. | Proses inzibati olaraq asanlıqla aparıla bilər. | İstifadə hüququnun verilməsi ilə əlaqədar şəffaflıq riski yarana bilər. |

**Mənbə:** Azərbaycanın Post-Konflikt Ərazilərinin Bərpası: Konseptual Əsaslar (2010).

Planlaşdırılan reabilitasiya tədbirlərinin gerçəkləşməsi və istehsalın programlaşdırılması üçün konkret dəstək mexanizmlərinin reallaşdırılmasına ehtiyac vardır.(Rzayev V., 2015: s.164). Belə ki, ölkədəki mövcud aqrar siyasət sözügedən sahənin inkişafı məqsədinə uyğundursa, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının bərpası və inkişafı üçün uyğun mexanizmlərin yaradılması zərurəti də nəzərə alınmalıdır

## 3.3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi inkişafının yaxın perspektivləri və ölkə iqtisadiyyatına verəcəyi töhfələr

İşğaldan azad edilmiş rayonlarda sahibkarlığın təşkili, idarə edilməsi və inkişafı üçün müasir dövrün tələblərinə cavab verən, qabaqcıl beynəlxalq təcrübəni əks etdirən hüquqi, təşkilati-iqtisadi, texniki-texnoloji, sosial, ekoloji və digər kompleks tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi sistemli yanaşma tələb olunur.

Araşdırmalar göstərir ki, işğaldan əvvəlki 1985-1990-cı illərdə Dağlıq Qarabağ və Kəlbəcər-Laçın rayonları böyük potensiala malik idi. Bu rayonlar müvafiq olaraq dənli bitkilərin 15-17%-ni, pambıq istehsalının 4-5%-ni və üzümün 25-27%-ni təşkil edirdilər. Faktlar göstərir ki, 182,6 min hektar Laçın, 199 min hektar Kəlbəcər, 109,4 min hektar Ağdam, 111,6 min hektar Cəbrayıl, 126,6 min hektar Füzuli, 842 min hektar Qubadlı, 72,6 min hektar Zəngilan rayonu ərazisi (əkinlər, çoxillik bitkilər, otlaqlar, meşələr, kənd təsərrüfatına yararlı torpaqlar) erməni işğalı altında qalmışdır (İbrahimov Ş., 2017: s. 43).

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını əhatə edən ərazilərdə iqtisadiyyatı dirçəltmək, reabilitasiya prosesinin taktiki və strateji cəhətdən olduqca vacib, bir o qədər də mürəkkəb tərkib hissəsidir. Bu regionda iqtisadi dirçəliş hədəfi təkcə məhv edilmiş istehsal müəssisələrinin bərpası və yenilərinin qurulması olaraq ifadə edilməməlidir. Əlbəttə ki, bu prosesdən qısa bir müddət sonra bölgədəki inzibati rayonların iqtisadi baxımdan artıq öz hesabına maliyyələşməsi, bununla yanaşı, respublikanın digər bölgələri ilə sıx iqtisadi əlaqədə olması, ölkənin xarici iqtisadi əməliyyatlarında tamhəcmli iştirakı gözlənilən və arzuolunandır. İqtisadi cəhətdən ölkədə yeni bir region yaranmaqdadır. Bu da özlüyündə çoxpilləli prosesdir. Belə ki, həm regiona daxil olan inzibati rayonlar arasında, həm də həmin rayonların hər birində yerləşəcək müəssisələr arasında kooperasiya əlaqələri qurulmalıdır.

Qarabağ regionu əhəmiyyətli inkişaf potensialına malik perspektivli zona kimi qiymətləndirilir. Regionda reallaşacaq ən müasir “Ağıllı Şəhər” və “Ağıllı Kənd”ləri enerji ilə təmin etmək üçün çayların, günəşin və küləyin enerji potensialından istifadə edəcək sadə elektrik stansiyalarının tikintisi üçün böyük səylər göstərilir.

Rayonun iqtisadi potensialı aqrar-sənaye kompleksinin inkişafı baxımından da yüksək qiymətləndirilir. Bu, ərazinin aqrar kompleksini xammalla təmin edən və kənd təsərrüfatının inkişafına şərait yaradan təbii resurs potensialı, eləcə də işğaldan əvvəlki tarixi inkişaf nəticəsində formalaşmış emal sənaye kompleksinin geniş strateji istiqaməti ilə müəyyən edilir.

İşğaldan azad edilmiş torpaqlarda iqtisadiyyat dedikdə ilk olaraq kənd təsərüffatı sahəsinin ağla gəlməsi ən təbii haldır. Belə ki, işğaldan əvvəlki dövrlərdə də yaylaq-qışlaq xarakterli təsərrüfatları, geniş heyvandarlıq ənənələrinə malik bölgənin özünəməxsus amilləri onun ölkənin əsas kənd təsərrüfatı zonalarından biri olmasına əsaslı zəmin yaradır (İbrahimov İ., 2016: s.238).Əkinçilik məqsədiylə istifadə ediləcək torpaq sahələrinin ölçüsü ilə bağlı proqnozlaşdırma, 1980-ci illərin rəsmi statistikasısına əsasaən keçən müddət ərzində respublikada kənd təsərrüfatının inkişaf trendləri əsasında ekstrapolyasiya olunmaqla aparılmışdır.

**Cədvəl 10: Perspektivdə əkin sahələrinin proqnozlaşdırılan strukturu, ha**

| | *Taxıl* | *Kartof, tərəvəz, bostan* | *Üzüm* | *Meyvə və giləmeyvə* | *Yem bitkiləri* | *Tütün* | *Pambıq* | *Cəmi sahə* |
|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | 48,500 | 2,100 | 2,300 | 1,700 | 400 | X | X | 55,000 |
| **Füzuli** | 50,465 | 1,769 | 761 | 2,679 | 12,579 | X | 1,300 | 69,553 |
| **Cəbrayıl** | 10,400 | 300 | 1,200 | 800 | 7,300 | X | X | 20,000 |
| **Ağdam** | 28,862 | 9,816 | 500 | 2,565 | 16,909 | X | 4,601 | 63,253 |
| **Laçın** | 2,300 | 200 | X | 500 | 1,000 | X | X | 4,000 |
| **Qubadlı** | 6,300 | 400 | 400 | 2,500 | 1,000 | 400 | X | 11,000 |
| **Zəngilan** | 1,900 | 300 | 1,000 | 2,200 | 2,500 | 300 | X | 8,200 |
| **Kəlbəcər** | 900 | 200 | X | 500 | X | 200 | X | 1,800 |
| **Cəmi sahə** | 149,627 | 15,085 | 6,161 | 13,443 | 41,688 | 900 | 5,901 | 232,805 |
| **Ölkə üzrə cəmi sahəyə nisbəti, %** | *12.8* | *9.6* | *27.9* | *6* | *10.6* | *22.5* | *5.8* | *11.1* |

**Mənbə:** Aqrar Tədqiqatlar Mərkəzi (2020). *Ağdam və Füzuli rayonlarının işğala məruz qalmayan ərazilərindəki faktiki istehsal nəzərə alınmaqla

Bölgədə ənənəvi sahələrə paralel olaraq, perspektiv dövr üçün meyvə-tərəvəzçiliyin, habelə, geniş yayılacaq olan heyvandarlığın yem təminatını ödəmək məqsədilə yem bitkiləri əkininin də inkişafı nəzərdə tutulmuşdur. Torpaq və iqlim göstəriciləri nəzərə alındıqda, çoxillik əkin növlərinin strukturunda bir sıra meyvə bağlarının, üzümlüklərin salınması, baramaçılığın inkişaf perspektivi cəhətdən çəkil

əkinlərinə üstünlük veriləcəyi gözlənilləndir. Bölgədə çoxillik əkmələr növlər üzrə proqnozlaşdırılaraq qeyd edilmişdir.

**Cədvəl 11: İşğaldan azad edilən torpaqlarda çoxillik əkmələrin növlər üzrə proqnozlaşdırılan strukturu, ha**

| | *Xurma* | *Alma* | *Alça, gavalı* | *Nar* | *Armud* | *Fındıq* | *Albalı, gilas* | *Çəkil* | *Üzüm* | *Cəmi meyvə* |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | 500 | X | X | 500 | X | X | X | 700 | 2,300 | 1,700 |
| **Füzuli** | X | X | 800 | 500 | 100 | 100 | 500 | X | 600 | 2,000 |
| **Cəbrayıl** | 100 | X | 300 | 200 | X | X | 200 | X | 1,200 | 800 |
| **Ağdam** | 200 | X | 400 | 200 | X | 200 | 600 | 200 | 500 | 1,800 |
| **Laçın** | 200 | X | 100 | 200 | X | X | X | X | X | 500 |
| **Qubadlı** | 200 | 200 | 300 | 1,000 | 100 | X | 200 | 500 | 400 | 2,500 |
| **Zəngilan** | 500 | 100 | 300 | 500 | 200 | X | 100 | 500 | 1,000 | 2,200 |
| **Kəlbəcər** | X | 200 | X | X | X | X | X | 300 | X | 500 |
| **Cəmi** | *1,700* | *500* | *2,200* | *3,100* | *400* | *300* | *1,600* | *2,200* | *6,000* | *12,000* |

**Mənbə:** Aqrar Tədqiqatlar Mərkəzi (2020).

Hazırkı dövrdə, respublikada üzümçülük və taxılçılığın inkişaf tempi nəzərə alınarsa, bu sahədə regionun da təxminən eyni səviyyəli paya sahib olması proqnozlaşdırılır. Əlavə olaraq, Zəngilan, Kəlbəcər və Qubadlıda tütünçülük, Füzuli və Ağdamda pambıqçılıq kimi geniş təsərrüfat sahələrinin dirçəldilməsi proqnozlaşdırılır.

**Cədvəl 12: Perspektivdə bitkiçilik məhsullarının istehsalına dair proqnoz, min ton**

| | *Taxıl* | *Pambıq* | *Tütün* | *Kartof* | *Tərəvəz* | *Bostan* | *Yem bitkiləri* | *Meyvə və giləmeyvə* | *Üzüm* |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | 155.7 | X | X | 20.3 | 12.3 | 4.2 | 17.5 | 12.1 | 24.1 |
| **Füzuli** | 158.9 | 3.1 | X | 4.4 | 12.8 | 8.4 | 105.6 | 15.6 | 7.2 |
| **Cəbrayıl** | 33.4 | X | X | 0.3 | 3.5 | 1.7 | 68.4 | 5.7 | 12.6 |
| **Ağdam** | 101.9 | 13.2 | X | 11.9 | 183.2 | 6.1 | 172.1 | 17.4 | 5.6 |
| **Laçın** | 7.4 | X | X | 1.7 | 1.4 | 0.4 | 24.8 | 3.6 | X |
| **Qubadlı** | 20.2 | X | 0.8 | 3 | 2.6 | 1.5 | 11.4 | 17.8 | 4.2 |
| **Zəngilan** | 6.1 | X | 0.6 | 1.7 | 2.6 | 1 | 24.1 | 15.6 | 10.5 |
| **Kəlbəcər** | 2.9 | X | 0.4 | 1.7 | 1.8 | X | 24.9 | 3.6 | X |
| **Cəmi istehsal** | 486.5 | 16.3 | 1.7 | 45.1 | 220.3 | 23.3 | 448.8 | 91.2 | 64.2 |
| **Ölkə üzrə nisbəti,%** | *12.6* | *5.4* | *22.3* | *4.3* | *12.1* | *5* | *8.8* | *7.7* | *24.3* |

**Mənbə:** Aqrar Tədqiqatlar Mərkəzi (2020)
*Ağdam və Füzuli rayonlarının işğala məruz qalmayan ərazilərindəki faktiki istehsal nəzərə alınmaqla

Torpaqlar bərpa edilərək, istifadəyə verildikdən sonra növbəti mərhələdə heyvandarlıq təsərrüfatının qurulması və bu istiqamətində kompleks tədbirlər həyata keçirilməsi zəruridir. Sözügedən sahənin intensiv amillər hesabına inkişaf

imkanları nəzərdən keçirilərək, təsərrüfatların məhsuldar heyvanlarla təmin olunması aktuallığını qoruyan məsələlərdəndir.

İşğaldan azad edilmiş bölgələrdə sahənin inkişaf perspektivliyi nöqteyi-nəzərdən aparılan araşdırma  və qiymətləndirmələrə əsasən, bu ərazilərdə aqrar təsərrüfatının bərpası istiqamətləri və aqrar sənaye məhsullarının potensial həcmi proqnozlaşdırılır.

**Cədvəl 13: Perspektiv dövr üçün əsas heyvandarlıq göstəriciləri**

| | **Heyvanların baş sayı, min baş** | | | **Heyvandarlıq Məhsullarının İstehsalı, min ton** | | |
|---|---|---|---|---|---|---|
| | ***İribuynuzlu heyvanlar - cəmi*** | ***ondan inək və camışlar*** | ***Xırdabuynuzlu heyvanlar - cəmi*** | ***Ət*** | ***Süd*** | ***Yumurta (mln. ədəd)*** |
| **Qarabağ** | 127.9 | 41.0 | 376.6 | 17.9 | 66.1 | 51.2 |
| **Ağdam** | 59.4 | 22.0 | 273.2 | 6.3 | 42.5 | 31.0 |
| **Cəbrayıl** | 35.3 | 11.8 | 162.7 | 3.7 | 21.0 | 18.4 |
| **Füzuli** | 50.5 | 18.0 | 212.3 | 4.6 | 31.2 | 19.0 |
| **Kəlbəcər** | 42.6 | 14.6 | 155.3 | 3.3 | 20.9 | 13.1 |
| **Qubadlı** | 30.5 | 11.1 | 43.6 | 2.2 | 18.3 | 7.1 |
| **Laçın** | 57.5 | 19.8 | 320.3 | 5.4 | 23.9 | 6.7 |
| **Zəngilan** | 25.6 | 9.1 | 49.2 | 1.9 | 14.3 | 5.8 |
| **Cəm** | 429.3 | 147.4 | 1.593.2 | 45.3 | 238.2 | 152.3 |
| **Ölkə üzrə nisbəti, %** | *14.7* | *10.9* | *17.5* | *12.2* | *10.5* | *7.9* |

**Mənbə:** Dövlət Statistika Komitəsi, Aqrar Tədqiqatlar Mərkəzi (2020).

Bölgənin heyvandarlıq sahəsində tarixi potensialı və relyefinin özəllikləri nəzərə alınaraq yaxın gələcəkdə heyvandarlığa əsaslanan kənd təsərrüfatı məhsullarının istehsalı üstünlük təşkil edəcəkdir. Süd və ət məhsulları  istehsalının proqnozlaşdırılan həcmi əsasaən idxalı əvəzləmə baxımından böyük əhəmiyyətə malik olacaqdır. Eyni zamanda keçmişdə mövcud olan üzümçülük, baramaçılıq, tütünçülük, arıçılıq kimi sahələr də bərpa edilərək genişləndiriləcəkdir.

İntensiv meyvəçiliyin inkişafı rayonlarda yeni tendensiyaya çevrilə bilər. Hesablamalara görə, rayonda kənd təsərrüfatı istehsalının bərpası nəticəsində ölkədə ümumi kənd təsərrüfatı məhsullarının 8%-dən çox artması gözlənilir. (Fikrətzadə F., Hacıyeva S., 2021: s.32).

İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı və digər iqtisadi sahələrlə yanaşı, özünəməxsus turizm potensialı Qarabağ bölgəsində biznes proseslərini sürətləndirmək üçün yeni imkanlar açacaqdır. Qlobal rəqabət bazarında üstünlük

qazanmağın əsas şərtlərdən biri azad edilmiş ərazilərdə müştərilərə hər bir dildə yüksək səviyyədə xidmət göstərməkdir. Bu gün dünyanın xarici dildə peşəkar xidmət göstərən şirkətləri turizm sektorunda böyük işlər görürlər:

-internet saytlarının və onların mobil versiyalarının lokallaşdırılması;

-beynəlxalq marketinq fəaliyyətinin həyata keçirilməsi;

-ənənəvi və rəqəmsal reklamın uyğunlaşdırılması;

-Sosial şəbəkələr üçün strategiyaların işlənib hazırlanması və həyata keçirilməsi;

-Rezervasiya xidmətlərinin yeri;

-çoxdilli onlayn söhbətlər təqdim etmək;

-müştərilər üçün reklam materiallarının və məlumatların tərcüməsi;

-təyyarələrdə, digər nəqliyyat vasitələrində və mehmanxana otaqlarında məlumat-əyləncə məzmununun lokallaşdırılması;

-Müştərilər üçün müxtəlif dillərdə lüğətlərin hazırlanması;

-avtonəqliyyat vasitələrində videomaterialların sinxron tərcüməsi;

-obyektlər və turist marşrutları üzrə zəruri göstəricilər, bələdçi-xəritələrin dillərə tərcüməsi, turistlərə müxtəlif formalarda tərcümə xidmətlərinin göstərilməsi;

-Nəqliyyat vasitələrinin xilasetmə xidmətlərinə dil dəstəyi vermək;

-Təyyarə heyətinin dil hazırlığı və s. daxildir.

Turizm potensialının yüksək olacağı Qarabağ bölgəsində istehsal olunacaq xalça, kəlağayı və silsilə tikiş işlərini nümayiş etdirməklə bu sənəti təbliğ edib satışını həyata keçirmək mümkündür.

Bölgədə təbiətin gözəl və füsunkar guşələri, içməli müalicəvi mineral suları, turizm və rekreasiya potensialı var. Kəlbəcər və Zəngilanın isti bulaqları, Şuşadakı spa mərkəzləri, kanat yollarının potensialı, Xudafərin körpüsü, Azıx mağarası yeni turizm marşrutları üçün cəlbedicidir. Qarabağda xalça turlarının təşkili böyük maraq doğurardı. Müalicəvi mineral sular və sanatoriya potensialı daxilində böyük turizm kompleksi (turizm klasteri) yaratmaq mümkündür. Bu ərazilərdə maddi-mənəvi, dini, ekoloji, aqroturizm, eləcə də turizmin digər sahələri üçün əlverişli turizm biznesi imkanları mövcuddur.

Azad edilmiş Kəlbəcər rayonu turizmin inkişafı baxımından Cənubi Qafqazda nadir rayonlardan biridir. Çünki yay-qış bu ərazini həm tarixi, həm dini, həm də tibbi baxımdan turizm istiqamətində inkişaf etdirmək mümkündür. Digər işğaldan azad edilmiş ərazilərdə də turizm potensialı yüksəkdir. Hazırda yeni biznes imkanları araşdırılır, təkliflər verilir və Qarabağda turizmin yenidən aktivləşdirilməsi üçün fəaliyyət strategiyaları üzərində gərgin iş aparılır. İşğaldan azad edilmiş ərazilərdə turizm biznesinin potensialının artırılması və turizm müəssisələrinin fəaliyyətinin gücləndirilməsi üçün bir sıra tədbirlər təklif oluna bilər: (Hüseynov N., 2021: s.73).

- regionun turizm potensialının obyektiv və fundamental təhlili aparılmalı, turizm potensialı şəffaf şəkildə qiymətləndirilməlidir;
- turizm biznesinin inkişafının intensivləşdirilməsi üçün rayonda konkret turizm layihələri hazırlanmalı, araşdırılmalı, biznes planlar əsaslandırılmalı və turizm şirkətlərinə və bu sahədə təcrübəsi olan şirkətlərə, potensial investorlara təqdim edilməlidir;
- ən azı ilk 10 il ərzində regionda turizmin canlandırılması, özəl turizm şirkətlərinin dəstəklənməsi üçün dövlət mexanizmlərinin gücləndirilməsi və s. üçün vergi təşviqi mexanizmləri və alətləri daxil olmaqla güzəştlər paketi hazırlanmalıdır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sözügedən sahə üzrə yüksək potensiala malik olması, sosial-iqtisadi inkişafı baxımından geniş perspektivlərə və böyük nailiyyətlərə yol açır.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, qeyri-neft sektoruna əsaslanan iqtisadi inkişaf üçün çox güclü potensiala malikdir. İşğalından öncə, bölgənin iqtisadiyyatı turizm, aqrar sənaye, yeyinti sənayesi, dağ-mədən sənayesi, sənaye rekreasiya imkanları ilə dəstəklənmişdir. İşğal altında olduğu dövrdə çox böyük talan və istismara məruz qalsa da, bölgə cografi mövqeyi, relyefi və zəngin təbii sərvətləri baxımından hələ də öz güclü potensialını qorumaqdadır.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin iqtisadiyyatının inkişafı proqramından öncə dayanaqlı iqtisadiyyatın təməllərini ata biləcək bir zəmin yaradılması zəruridir. İlk növbədə infrastruktur yenidən bərpa edilməli, potensial iqtisadi istiqamətlər analiz olunmalı, böyük miqdarda maliyyə vəsaitləri və investisiya yatırımları ayrılmalı, həmçinin xarici investorların cəlb edilməsinə şərait yaradılmalıdır.

İşğaldan azad edilmiş bölgələrdə iqtisadi inkişaf potensiallarını müəyyən etmək üçün ilk öncə prioritet sahələri təhlil etmək vacibdir. Bu mənada yaxın gələcəkdə region iqtisadiyyatında müqayisəli rəqabət üstünlüklərinə malik sahələr diqqətlə seçilməlidir. Bölgədə dövrün tələblərinə cavab verən, qabaqcıl beynəlxalq təcrübəni əks etdirən hüquqi, təşkilati-iqtisadi, texniki, ekoloji və digər kompleks tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsində sistemli yanaşma tətbiq olunması məqsədə uyğundur. Bu isə öz növbəsində qayıdış-bərpa prosesini daha da sürətləndirmiş olacaqdır.

Bölgədə xüsusi əhəmiyyət kəsb edən sahələrdən olan dövlət-özəl sektor münasibətlərinin iqtisadi artımı qabaqcıl və effektiv özəl təşəbbüslərə əsaslanmalı, sözügedən sahə gücləndirilməlidir. Dövlət vəsaitlərinə qənaət, eyni zamanda qoyulan investisiyaların səmərəliliyinin artırılması məqsədi ilə müxtəlif sahələrdə dövlət-özəl tərəfdaşlığından yararlanmalı, özəlliklə güzəştli iqtisadi rejimin tətbiqi həyata keçirilməlidir.

Dövlətin strateji maraqları sırasında olan, kiçik və orta biznesin təşkili və inkişafı üçün əlverişli mühitin yaradılması zəruridir. Sözügedən sahə sosial xarakter daşımaqla yanaşı, yeni iş yerlərinin yaradılması və bölgədə məşğulluğun artırılmasına öz töhfəsini verəcək, eyni zamanda əhalinin sosial rifahının yaxşılaşdırılmasına xidmət etmiş olacaqdır.

Qarabağ bölgəsi özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və o cümlədən, musiqi mədəniyyəti ilə olduqca zəngindir. İşğaldan azad olunduğu dönəmdən etibarən, dövlət səviyyəsində keçirilən əhəmiyyətli regional və beynəlxalq tədbirlərə ev sahibliyi edən Şuşa şəhəri öz tarixi şöhrətini ən yüksək

səviyyədə bərpa edəcək, xalqın milli mədəniyyət məbədi kimi regionun və dünyanın ən möhtəşəm mədəniyyət-turizm mərkəzlərindən birinə çevriləcəkdir.

Qarabağ və ətraf rayonlarının işğaldan azad edilməsi, müharibənin Azərbaycanın böyük və tarixi qələbəsi ilə nəticələnməsi, regional kommunikasiyaların açılması üçün geniş imkanlar yaratmışdır. Belə ki, yaxın zamanda reallaşacaq "Zəngəzur dəhlizi" layihəsinin tərkib hissəsi olan, Naxçıvan Muxtar Respublikasına quru yolunun açılması böyük tarixi nailiyyətdir. Nəticə etibarilə, Naxçıvan MR-ı blokadadan çıxmış olacaq, regionda yeni nəqliyyat arteriyası yaranacaqdır.. Türkiyəyə birbaşa avtomobil və dəmir yolunun çəkilməsi Azərbaycanla Türkiyə arasındakı ticari əlaqələri dəfələrlə artıracaqdır. Eyni zamanda, türk dövlətlərinin strateji mövqeyini və ticari-iqtisadi əlaqələrini daha da genişləndirəcək, region ölkələri arasında sülh və əməkdaşlığı gücləndirmiş olacaqdır.

Kommunikasiya xəttlərinin açılması və nəzərdə tutulan nəqliyyat layihələri, yük və sərnişin daşınmaları, idxal və ixrac üçün də geniş tranzit imkanları yaradacaq, Azərbaycanı Avropa-Asiya qovşağında daha mühüm mərkəzə çevirəcəkdir. Regional iqtisadi əlaqələr Zəngəzur dəhlizi vasitəsilə kəmiyyət və keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyacaqdır.

Araşdırmada qeyd olunan nəticə və təklifləri aşagıdakı kimi ümumiləşdirmək olar:

- İşgaldan azad olunmuş ərazilərdə infrastrukturun tamamilə məhv edilməsi və restrukturizasiya prosesini rahat həyata keçirə biləcək təməllərin yox olması bölgədə kompleks bərpa işlərinin aparılması zərurətini yaratmışdır;
- İşgaldan azad olunmuş ərzilərdə nəqliyyat -kommunikasiya xətlərinin bərpası, sistemli şəkildə müasir standatlara uyğun yaşayış massivlərinin inşası həyata keçirilməlidir;
- Bölgədə mərhələli şəkildə əhalinin məskunlaşdırılması, o cümlədən yenidənqurma işlərində iştirakları üçün çevik, aktiv məşğulluq proqramları hazırlanmalıdır;

- Bölgənin işgaldan öncəki iqtisadi potensalı dəyərləndilməli, daha perspektivli sahələr müəyyənləşdirilməlidir;
- İşğaldan azad olunmuş ərazilərdə potensial iqtisadi sahələr ön plana çıxarılmalı, dövlətin iqtisadi və sosial siyasətində mühüm yer tutan prioritet sahələr inkişaf etdirilərək əsas hədəflərdən biri kimi diqqətdə saxlanılmalıdır;
- İşğaldan azad edilmiş ərazilərin mövcud bazar rəqabəti şəraitində dayanıqlı hala gəlməsi və möhkəmlənməsi üçün sahibkarların maliyyə resurslarına çıxış imkanları genişləndirilməli və dövlət dəstəyi gücləndirilməlidir;
- Qlobal rəqabətli bazar şəraitində bölgədə prioritet iqtisadi sahələr nəzərə alınmalı, o cümlədən dövlət-özəl sektor münasibətləri tənzimlənməlidir;
- Yerli və xarici investorların cəlb olunması üçün təhlükəsiz və şəffaf mühit yaradılmalıdır;
- Bölgəyə müasir bilik, təcrübə və bacarıqlara malik olan, yerli və xarici mütəxəssislər cəlb edilməlidir;
- Bölgədə regional sosial-iqtisadi layihələrin reallaşması istiqamətində dövlət inkişaf startegiyasına əsaslanan proqramlar prioritet olmalıdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində

1. "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlər". Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı. https://president.az/articles/50474

2. Azərbaycan Respublikası Prezidentinin "Qarabağ Dirçəliş Fondu publik hüquqi şəxsin yaradılması haqqında" 2021-ci il 04 yanvar tarixli Fərmanı. https://president.az/az/articles/view/49876

3. "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 29 dekabr 2020-ci il. https://president.az/articles/49859

4. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi haqqında" Fərmanı. Bakı, 6 Dekabr 2016-cı il. https://president.az/az/articles/view/22110

5. Azərbaycanın Regionları (2019), ARDSK-nın məcmuəsi, Bakı, 806 səh.

6. Azərbaycan Kənd Təsərrüfati Nazirliyi / İllik hesabat (2020).

7. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin erməni silahlı təcavüzü və işğalı nəticəsində ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərlərin qiymətləndirilməsi (2015), Bakı, 252 səh.

8. Abasov İ. (2011), Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri, Bakı. "Elm və Təhsil", 640 səh.

9. Abasov İ. (2013), Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı, Bakı. "Şərq-Qərb" Nəşriyyat evi, 713 səh.

10. Abadov M. (2014), Azərbaycan turizmi və onun inkişaf problemləri, Bakı. "Şərq-Qərb" Nəşriyyat Evi, 248 səh.

11. Abdalova M.M. (2019), "Böyük şəhərlərdə sənayenin innovativ inkişafı". Bakı, Elm və bilik, 194 səh.

12. Cabbarov Ə. X. (2017), Turizm marşrutları və ekskursiya işinin təşkili: Dərs vəsaiti. Bakı, "ADPU" Nəşriyyatı, 152 səh.

13. Cabbarlı L.A. (2020), "İşğaldan azad olunan şrazilərdə kənd təsərrüfatının inkişaf istiqamətləri". Bakı, "Kənd təsərrüfatının iqtisadiyyatı", № 4 (34).

14. Əhmədov M.A., Hüseyn A.C. (2011), İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları: Medodik vəsait. Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 120 səh.

15. Əliyev Ş.T. (2018), Azərbaycan iqtisadiyyatı: Dərslik. Bakı, "SDU" Nəşriyyatı, 376 səh.

16. Əliyev Ş.T. (2008), "Xüsusi iqtisadi zonaların təşkili problemləri və inkişaf perspektivləri" monoqrafiya. Bakı, "Elm" , 252 səh.

17. Əfəndiyev V.Ə. (2010), Azərbaycanın iqtisadi və sosial coğrafiyası: Dərslik. Bakı, "Bakı Umivrsiteti" 496 səh.

18. Əliqızı Ş.(2011), "İşğaldan azad olunmuş ərazilərin böyük iqtisadi potensialı var". Bakı, "İki sahil" qəzeti.

19. Əliyev T.N. (2020), "Azərbaycanın işğaldan azad edilən ərazilərində sahibkarlığın inkişaf istiqamətləri". Bakı, "İqtisadiyyat" qəzeti.

20. Fikrətzadə F.F., Hacıyeva S.İ. (2020), "İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması". Bakı, "Kənd Təsərrüfatının İqtisadiyyatı", № 4 (34).

21. Həsənov T.G. (2002), Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının ağır sosial-iqtisadi nəticələri. Bakı, "Çaşıoğlu" Nəşriyyatı, 122 səh.

22. Hüseynova İ.M. (2013), Müəssisənin iqtisadiyyatı: Dərs vəsaiti. Bakı, "BBU" Nəşriyyatı, 304 səh.

23. Xəlilov M.Y., Məmmədov Q.Ş. (2002), "Azərbaycanın meşələri" monaqrafiya. Bakı, "Elm" Nəşriyyatı, 472 səh.

24. İbrahimov İ.H. (2016), "Aqrar sahənin iqtisadiyyatı" monoqrafiya. Bakı, 655 səh.

25. İmanov F.Ə., Ələkbərov A.B. (2017), Azərbaycan su ehtiyatlarının müasir dəyişmələri və inteqrasiyalı idarə edilməsi, Bakı. "Mütərcim" Nəşriyyatı, 353 səh.

26. İbrahimov İ.H. (2005), Aqrar islahatlar və sahibkarlığın inkişafı. Bakı, 220 səh.

27. İbrahimov Ş.H. (2003), Azərbaycanın regionlarındakı aqrar problemlər haqqında. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Bakı, "İqtisadi İslahatlar Mərkəzi" elmi əsərlər toplusu, IV buraxılış, 294 səh.

28. Kərimzadə P. (2021), "İşğaldan azad edilmiş ərazilər erməni vandalizminin canlı şahididir". Bakı, "Trend.az"

29. Quliyev E.A. (2015), Aqrar İqtisadiyyat: Dərslik. Bakı, "Kooperasiya" Nəşriyyatı, 320 səh.

30. Mehbaliyev M.M. (2009), "Mağara turizmi", Bakı. "Elm və həyat" jurnalı, №1, s. 40-47.

31. Mehdiyev A.Ş., İsmayılov A.İ. (2011), Coğrafi informasiya sistemləri: Dərslik. Bakı, "Müəllim" Nəşriyyatı, 232 səh.

32. Məmmədov E.Q. (2013), "Azərbaycanda turizm bazarının formalaşması və idarəolunmasının regional xüsusiyyətləri" monoqrafiya. Bakı," Gənclik" Nəşriyyatı, 172 səh.

33. Məmmədov Q.Ş. (2010), Meşə Ekologiyası: Dərslik. Bakı,"Elm" Nəşriyyatı, 450 səh.

34. Müzəffərli N., İsmayılov E. (2010), Azərbaycanın post- konflikt ərazilərinin bərpası: konseptual əsaslar, Bakı. "Qafqaz" Nəşriyyat Evi, 270 səh.

35. Musayev A., Zeynalov A. (2021), "Qarabağın bərpası və inkişafı prosesində xarici dəstək mühüm amildir". Bakı, "Azərbaycan" qəzeti.

36. Rzayev V.R. (2015), Torpaq münasibətlərinin təşkilati-iqtisadi mexanizmi. Bakı, 248 səh.

37. Soltanova H. (2015), Azərbaycan Respublikasında turizm və onun inkişafı, Bakı. "AzTU" Nəşriyyatı, 476 səh.

38. Vəliyev A.H. (2019), Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin tənzimlənməsinin hüquqi-iqtisadi aspektləri, Bakı. "Avropa" Nəşriyyatı, 386 səh.

39. Zeynallı Ə.T. (2005), Azərbaycan kənd təsərrüfatı coğrafiyasının müasir problemləri, Bakı. "Elm" Nəşriyyatı, 392 səh.

**İngilis dilində**

1. The informative cartographic reference book of Azerbaijan(2000), Baku, Chevron, 189 p.

2. Wozniak M., Duda J., Gąsior A., & Bernat T. (2019), Relations of GDP growth and development of SMEs in Poland. Procedia Computer Science, 159, 2470-2480.

**Rus dilində**

1. Беланова Н.Н. (2018), Приоритетные направления развития цифровой экономики, «Вестник Самарского университета, Экономика и управление», Том 9, № 1, с.7-13.

2. Вердиева Х. Ю. (1999), Переселенческая политика Российской империи в северном Азербайджане. Ваку, Алтай, 298 с.

3. Камилов М.К., Камилова П.Д., Камилова З.М.(2014), «Региональные проблемы преобразования экономики», №7, с. 92-97.

4. Козлов А.В., Тесля А.Б. (2019), Цифровой потенциал промышленных предприятий: сущность, определение и методы расчета. «Вестник, ЗабГУ», Т. 25, № 6, с. 101-110.

5. Косарева И.Н., Самарина В.П. (2019), Особенности управления предприятием в условиях цифровизации. «Вестник Евразийской науки», №3,Том 11, с. 2-8.

6. Новоселова Н.Н., Кочесокова З.Х. (2009), Необходимость усиления государственного регулирования развития аграрной сферы. «Ростов-на-Дону: изд-во ЮФУ», Т.7, № 4, с.117-120.

7. Романов Р.В. (2015),Основные направления и методы государственного регулирования сельскохозяйственного производства. «Аграрный вестник Урала», № 9 (139), с.97-101.

8. Шихалибейли Э.Ш. и др.(1994), Геология и полезные ископаемые Нагорного Карабаха. Баку, «Елм», 210 с.

## İnformasiya resursları


1. https://xalqqazeti.com/az/news/73652, 2022.
2. http://interfax.az/view/817974/az, 2021.
3. https://hafta.az/agdam-—-qarabagin-senaye-merkezi-302218-xeber.html, 2021
4. https://president.az/articles/51773, 2021.
5. https://xalqqazeti.com/az/news/73556, 2021.
6. https://vergiler.az/news/economy/10978.html, 2021.
7. https://www.stat.gov.az/source/agriculture/, 2021.
8. https://www.statista.com/statistics/262860/uk-brent-crude-oil-price-changes-since-1976/, 2022.
9. https://uploads.cbar.az/assets/106777535cdfbcbd336dab17b.pdf, 2022.
10. https://sputnik.az/karabakh/20210104/425804416/isgaldan-azad-edilmi-razilrd-bir-nece-turizm-klasteri-yaradla-biler.html, 2022.
11. https://teleqraf.com/news/gundem/279800.html, 2021.
12. https://apa.az/az/dagliq_qarabag/Mcburi-kockunlr-arasinda-qayidis-haqqinda-onlayn-sorgu-baslayib-630545, 2021.
13. https://vergiler.az/news/economy/10815.html., 2021.
14. http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf ., 2021.
15. http://eco.gov.az/az/fealiyyet-istiqametleri/hidrometeorologiya/goller-ve-su-anbarlari, 2022.
16. https://www.virtualkarabakh.az/az/post-item/26/45/qarabag-tebieti.html, 2021.


## Cədvəllərin siyahısı


**Cədvəl 1:** Azərbaycanın əsas makroiqtisadigöstəriciləri..........13
**Cədvəl 2:** Ölkə üzrə səyahət agentlikləri və turoperatorları müəssisələrinin sayı, əldə etdiyi ümumi gəlir (min manat) və müəssislərdə işçilərinsayı..........16
**Cədvəl 3:** Qarabağ regionun münaqişə nəticəsində 1988-1993-cü illər ərzində itirilmiş iqtisadi ərazi potensialı..........29
**Cədvəl 4:** 1980-ci illər üzrə əkin sahələrinin strukturu, ha ilə..........30
**Cədvəl 5:** 1980-ci illərdə bitkiçilik məhsullarının istehsalı, min ton ilə..........31
**Cədvəl 6:** Heyvanların baş sayı, min baş..........31
**Cədvəl 7:** Əsas heyvandarlıq məhsullarının istehsalı, min ton..........32

**Cədvəl 8:** Regiondakı faydalı qazıntılar..........................................................................................34
**Cədvəl 9:** İşğaldan azad edilmiş ərazilərdə torpaq islahatı üçün mümkün həll yolları.................55
**Cədvəl 10:** Perspektivdə əkin sahələrinin proqnozlaşdırılan strukturu, ha..................................57
**Cədvəl 11:** İşğaldan azad edilən torpaqlarda çoxillik əkmələrin növlər üzrə proqnozlaşdırılan strukturu, ha..........................................................................................................................57
**Cədvəl 12:** Perspektivdə bitkiçilik məhsullarının istehsalına dair proqnoz, min ton...................58
**Cədvəl 13:** Perspektiv dövr üçün əsas heyvandarlıq göstəriciləri............................................... 59

## Sxemlərin siyahısı

**Sxem 1:** Minatəmizləmə fəaliyyətinin mərhələli təsviri.............................................................22

## Diaqramların siyahısı

**Diaqram 1:** Dünya bazarında neftin orta illik qiyməti (2016-2020-ci il, ABŞ dolları ilə)...........14

## Qrafiklərin siyahısı

**Qrafik 1:** İşğaldan azad edilən ərazilərdə faydalı qazıntı yataqları.............................................35